Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14
NOYABR
2019-cu il
№ 202 (4100)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANIN AVROPA VƏ ABŞ-la İNTEQRASİYA LAYİHƏSİ İFLASLA BİTDİ - AVRASİYA BİRLİYİNDƏN «YAXŞISI YOX İMİŞ»...

■ səh. 7 ■

Prezident Azərbaycanda sərnişin qatarlarının fəaliyyətində köklü dəyişikliklərə start verdi ■ səh. 2 ■

Prezident "yaramaz məmurlar" deyəndə kimləri nəzərdə tutdu... ■ səh. 4 ■

Ermənistan rejiminin xalqı yeni aldatma üsulu özünə qarşı çevrilir - hərbi büdcə artımının dondurulması Paşinyanı yeni ittihamlarla üzləşdirir... ■ səh. 9 ■

Müsavat özündən əvvəl "gözü çıxmış" Milli Şuradakı qardaşlarının rüsvayçı piket uğursuzluğundan niyə nəticə çıxarmadı... ■ səh. 5 ■

Perunun Azərbaycanda Səfirliyini bağlaması bizdən asılı səbəblərlə əlaqəlidirmi? ■ səh. 6 ■

Ərdoğan ABŞ-ın Qüds qərarına görə İƏT-i fövqəladə toplamışdı, "genosid" qərarına görə İƏT-in səsi çıxmadı... ■ səh. 10 ■

Manata artan inam onu regional valyutaya çevirir... ■ səh. 12 ■

AMEA-da strukturların ləğvi, yenidən qurulması başlandı... ■ səh. 14 ■



## İcra başçılarının investisiya cəlb etmək problemi - Prezident bacaranlara mükafat, bacarmayanlara cəza verəcək...

■ səh. 3 ■



Prezident müxalifətin bəzi məmurları xüsusi qərəzlə qaralama planlarından xəbərdar olduğunu nümayiş etdirdi... ■ səh. 8 ■



Paşinyanın «ayaqları yerdən üzüldü» - Qərb ondan imtina etdi, Rusiya təzyiqləri artırır, xalq arxasından çəkilib... ■ səh. 11 ■

Suriyada katolik erməni pastorların qətlində klassik erməni terror izləri... ■ səh. 10 ■

■ səh. 5 ■
"Cəmiyyət bir daha gördü ki, radikal müxalifət öz qrup maraqları və intriqalardan uzağa gedə bilmir"



■ səh. 4 ■
Azərbaycanın dünyada məsuliyyətli dövlət imici - ölkəmiz buna nələrin hesabına nail olub...



■ səh. 7 ■
"Google maps"ın əcaib ixtirası - "Dağlıq Qarabağı Azərbaycan işğal edib"...



■ səh. 13 ■
Sahibkarlarla nadürüst davranışlara görə icra başçılarından "vurulanlar olacaq"...



■ səh. 14 ■
Qazaxıstanda unun bahalaşmasının Azərbaycana satılan taxılın qiymətinə təsiri...



# Prezident Azərbaycanda sərnişin qatarlarının fəaliyyətində köklü dəyişikliklərə start verdi

**Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edib. Azərbaycanın dəmir yollarında görülən işlər və qarşıda duran vəzifələrdən danışan Prezident İlham Əliyev deyib ki, son illər dəmir yolu infrastrukturuna böyük investisiyalar qoyulur. Bu investisiyalar hesabına dəmir yolu infrastrukturu böyük dərəcədə inkişaf edib:**

**Davos hesabatında Azərbaycanın yüksək yeri...**

"Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Bu, kifayət qədər yüksək göstəricidir, son illərdə aparılan işlərin təzahürüdür. Onu da əlavə etməliyəm ki, nəqliyyat infrastrukturunun səviyyəsinə görə biz dünyada 31-ci yerdəyik. Yəni Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir, keçən il yeni dəniz ticarət limanı, 2017-ci ildə Bakı-Tbilisi-Qars tarixi dəmir yolu istifadəyə verilib, daxili dəmir yolları müasirləşir. Bir sözlə, Davos hesabatında bizim yüksək yerə malik olmağımız reallığı əks etdirir. Ancaq bununla paralel olaraq biz gələcəkdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Çünki ölkəmizin uğurlu inkişafı, o cümlədən nəqliyyat infrastrukturundan asılıdır.

**Avropa ölkələrinin BTQ-dən istifadəsi reallığa çevrilib…**

… Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq.

**Ölkədaxili dəmir yollarında modernləşmə və Qəbələyə ilk dəmir yolu…**

…Eyni zamanda, mənim göstərişimlə ölkədaxili dəmir yollarının tikintisi və modernləşdirilməsi istiqamətində addımlar atılır, o cümlədən Bakı şəhərətrafı yolun tikintisi gedir. Bu, Bakı qəsəbələrini şəhərin mərkəzi ilə bağlayan yollardır. Eyni zamanda, bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdir, buna ehtiyac yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki, bu yaxınlarda Qəbələdə olarkən mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət otellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni bir ayda Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var - Şamaxı-Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm qrafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır.

**Elə etməliyik ki, qatarlar saatda 140 kilometr sürətlə hərəkət etsin...**

Eyni zamanda, baxmayaraq ki, Şimal-Cənub nəqliyyat dəhlizi işləyir, ancaq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Çünki vaxtilə orada təmir işləri aparılmamışdır. Yollar tamamilə yenidən qurulmalıdır ki, qatarların sürəti artsın. Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin. Artıq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının modernləşdirilməsi prosesi başlanmışdır".



"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri deyib ki, ölkədə 15 min kilometrdən çox yol çəkilib, körpülər, aeroportlar tikilib, o cümlədən Azərbaycanın dəmir yollarında bir növ inqilab olub, yenilik edilib.

Bakı-Sumqayıt dəmir yolunun fəaliyyəti, onun əhəmiyyəti haqqında danışan Cavid Qurbanov deyib ki, artıq bu yolla hər gün 12 min sərnişin daşınır.

Prezident Cavid Qurbanovdan Bakı-Gəncə dəmir yolunun fəaliyyəti, o cümlədən Ləki-Qəbələ, Ələt-Astara və Bakı-Yalama dəmir yollarının tikintisi barədə də məlumat verməsini istəyib və sonda tövsiyələrini verib.

*Baki-xeber.com*

# Dünya dini liderlərinin Bakı Sammitinə gəlmiş bir sıra dövlət nümayəndələri Azərbaycan Prezidentinin qəbulunda oldular

**Prezident İlham Əliyev noyabrın 13-də Rusiya Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu, həmçinin İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini, Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Elsayed Elşerinin başçılıq etdiyi nümayəndə heyətini və Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı ayrı-ayrılıqda qəbul edib.**

Qeyd edək ki, qonaqlar 14-15 noyabr tarixlərində Bakıda keçiriləcək Dünya Dini Liderlərinin II Sammitində iştirak etmək üçün ölkəmizə gəliblər. Onu da bildirək ki, bu mötəbər tədbirdə iştirak etmək üçün müxtəlif ölkələrdən təriqət və konfessiya rəhbərləri, siyasi, ictimai və elm xadimləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri ölkəmizə səfərə gəlib.

Dünyanın 5 qitəsindən 70-dən artıq dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçilərinin, 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500 nəfərədək nümayəndəsinin qatılacağı Sammitin işinə Dünya Dini Liderlərinin Bakı Bəyannaməsinin qəbul edilməsilə yekun vurulacaq.

*Baki-xeber.com*

**Ölkə başçısı bir necə rayona yeni təyin olunan icra başçılarını qəbul edib. Onlarla ətraflı söhbət aparan dövlət başçısı işlərinin icrasına başlayacaq məmurlara tövsiyə və göstərişlərini verib. İlham Əliyev bu dəfə də icra başçılarına rəhbərlik edəcəkləri rayonlara investisiya cəlb etmələrini tapşırdı:**

# İcra başçılarının investisiya cəlb etmək problemi - Prezident bacaranlara mükafat, bacarmayanlara cəza verəcək...

## *İlqar Hüseynli: "Çox yaxşı olar ki, bu məsələdə regionların investisiya cəlbedicilik əmsalına görə fərqli təsnifatlandırma aparılsın"*



"Siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda 4-cü regional inkişaf proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bu günə qədər öz həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməlisiniz, reaksiya verməlisiniz və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın. Ona görə vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmaq, investorları cəlb etmək, rayonların sosial-iqtisadi inkişafını təmin etmək sizin əsas vəzifəniz olmalıdır. Yenə də deyirəm, həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahələrinə dövlət xəttilə çox böyük dəstək göstərilir".

Qeyd edək ki, bundan əvvəl də ölkə başçısı rayon icra hakimiyyəti başçılarına hətta xarici investisiyanın cəlbi ilə bağlı sərbəstlik vermişdi. Təəssüflər olsun ki, bu sahədə ciddi irəliləyiş nəzərə çarpmadı. İcra başçılarının rayonlara investisiya cəlbinin öhdəsindən nə dərəcədə gələ bildiklərini və ya bilmədiklərini müəyyən etmək üçün "bacaranlara mükafat, bacarmayanlara cəza" prinsipinin tətbiqi bu sahədə işlərin inkişafına hansı stimulu verə bilər?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının irəli sürdüyü tələblər çox yaxşıdır: "İnvestisiya cəlbi ilə bağlı məsələyə bir qədər kompleks formada yanaşmaq lazımdır. İlk əvvəl investisiya mühiti yaxşı olmalıdır. Bunun üçün həm də ölkənin investisiya mühitinə daha da yaxşılaşdırmağa ehtiyac var. Belə işlərin görülməsinə məsul olan qurumlar var ki, Prezidentin tapşırıqlarından onlar da öz paylarını götürməlidirlər. Demək istəyirəm ki, investisiya mühiti yaxşı olmasa, icra başçısı nə qədər bacarıqlı olursa-olsun, ora kapital cəlb edə bilməyəcək. Bunun üçün həm də rayonlarda bu mühitin sağlamlaşmasına zərurət var. Digər tərəfdən, biz bütün rayonlara bu məsələdə bir gözlə baxa bilmərik. Elə rayonlar var ki, ora investisiya baxımından çox cəlbedicidir, elələri var ki, yox. Bütün bu hallar yaxşılaşandan sonra artıq investorun özü gəlib rayonlara sərmayə qoymaqda maraqlı olacaq. Təbii ki, investisiya cəlbində şəxsi keyfiyyətlər də önəmli rol oynayır. Köhnə nəsil icra başçıları ilə bunu etmək bir qədər çətin olardı. Yeni təyin olunan icra başçılarının tərcümeyi-halına baxanda, onların bir neçə xarici dil bildiyini görürük. Bunun özü investisiya cəlbində mühüm faktordur. Çünki adam getməlidir, danışmalıdır, inandırmalıdır ki, investor gətirib onun rayonuna sərmayə qoysun. Eyni zamanda, icra başçılarının xaricə çıxış imkanları bir qədər sadələşdirmək lazımdır. Bilirsiniz ki, onlar Prezidentin yerlərdəki səlahiyyətli nümayəndələridirlər. Dövlətin tapşırıqlarını yerinə yetirməklə bağlı işləri çox, qrafikləri zəngin olur. Çox yaxşı olar ki, bu məsələdə regionların investisiya cəlbedicilik əmsalına görə fərqli təsnifatlandırma aparılsın. Bunun da müqabilində icra başçılarının fəaliyyətinə qiymət verilsin. Məsələn, biz bu məsələdə Zərdabla Lənkəranı eyni tərəziyə qoya bilmərik. Bundan əlavə, bu məsələdə icra başçılarına Azərbaycanda investisiya qoyuluşunu təbliğ edən qurumlar yardım etməlidirlər. Həmin rayonların bütün potensialı xarici auditoriyaya çıxış imkanları olan saytlar, jurnallar vasitəsilə təbliğ olunmalıdır. Bütün bunlar öz həllini tapandan sonra biz icra başçılarından konkret nəticələr tələb etməliyik. Ümumən isə qarşıya qoyulan məqsəd çox lazımlıdır. Bunun həm ölkəmizin inkişafına, həm də regionlarda əhalinin maddi durumunun yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına müsbət təsiri olacaq".

*"Bunun da müqabilində icra başçılarının fəaliyyətinə qiymət verilsin"*

***Məhəmmədəli QƏRİBLİ***

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 13-də Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosu qəbul edib.**

# Nazir Vilayət Eyvazov Fransanın ölkəmizə yeni təyin olunmuş səfirini qəbul etdi

Daxili İşlər Nazirliyi Mətbuat xidmətindən "Bakı-Xəbər"ə bildirildiyinə görə, qonağı salamlayan nazir yeni təyinat münasibətilə onu təbrik edib, ölkəmizdəki diplomatik işində ona uğurlar arzulayıb, fəaliyyəti müddətində Azərbaycan-Fransa münasibətlərinin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib.

İkitərəfli münasibətlərin zəngin ənənələrə malik olduğunu, bu əlaqələrin qurulmasında ulu öndər Heydər Əliyevin danılmaz xidmətlərini məmnunluqla xatırladan general-polkovnik Vilayət Eyvazov Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkələrimiz və xalqlarımız arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, qarşılıqlı faydalı işbirliyinin nəinki qorunub-saxlanmasına, davamlı və hərtərəfli inkişafına da böyük önəm verdiklərini, bu ali diqqət, eləcə də dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində Azərbaycan-Fransa əməkdaşlığının bütün sahələrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.

Sonra fransalı diplomata müstəqilliyin ilk illərində ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi hadisələr, xalqın tələbilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, onun rəhbərliyi altında həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlığa qətiyyətli mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi barədə məlumat verilib, ölkəmizin Avropaya inteqrasiya etdiyi, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunlar qəbul olunduğu, bu işdə bir sıra inkişaf etmiş dövlətlərin, beynəlxalq təşkilatların, o cümlədən fransalı mütəxəssislərin böyük rolu olduğu, həmin qanunların icrasının mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Daxili İşlər nazirlikləri arasında mövcud əlaqələrdən söz açan nazir V.Eyvazov bu əməkdaşlığın, əsasən, Fransanın daxili təhlükəsizlik məsələləri üzrə ölkəmizdə akkreditə olunmuş regional attaşesi vasitəsilə həyata keçirildiyini, ölkəmizə səfərləri zamanı qarşılıqlı faydalı işbirliyinə dair onlarla dəfələrlə müzakirələr aparıldığını xatırladıb. Bu əməkdaşlıq çərçivəsində müxtəlif illərdə Bakı şəhərində keçirilmiş təlimlərdə daxili işlər orqanlarının ümumilikdə 57 əməkdaşı iştirak edib. Əməkdaşlığın davamı olaraq, cari il noyabrın 11-də Bakıdan başlayan, hazırda Tbilisi şəhərində davam edən "Narkotik vasitələrə qarşı mübarizədə nəzarətli çatdırma" adlı praktik təlimdə ölkəmizin müvafiq dövlət orqanlarının əməkdaşlarından ibarət heyətin də iştirak etdiyi qeyd olunub.



Cənab V.Eyvazov "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Fransa Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" layihəsinin hazırlanaraq müvafiq dövlət orqanları ilə razılaşdırıldıqdan sonra qarşı tərəfə təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərildiyini, həmin sənədin imzalanmasının əlaqələrin daha da inkişafına əlverişli hüquqi zəmin yaradacağına əminliyini ifadə edib.

Azərbaycanın sabitliyin və təhlükəsizliyin uzun illər ərzində etibarlı qorunduğu və bunun məntiqi nəticəsi olaraq beynəlxalq tədbirlərin mütəmadi keçirildiyi ölkələrdən biri olduğunu nəzərə çatdıran nazir bununla yanaşı, tək respublikamızın deyil, dünyanın bir çox dövlətlərinin narahatlığına səbəb olan terrorçuluğun, ekstremizmin, narkotiklərin qanunsuz dövriyyəsinin, insan alverinin, qanunsuz miqrasiyanın, kibercinayətkarlığın və digər transmilli cinayətlərin təhlükəsinin hələ də real olduğunu, belə qlobal xarakterli təhlükələrlə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir Zakari Qros səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, ölkəmizdə tolerantlıq mühitinin, multikultural dəyərlərin hökm sürməsindən məmnunluğunu, fəaliyyəti dövründə ikitərəfli əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Prezident "yaramaz məmurlar" deyəndə kimləri nəzərdə tutdu...

**"Hansısa yaramaz məmur şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq". Bunu Prezident İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edərkən deyib.**



Prezidentin sözlərinə görə, ölkənin ümumi inkişafı müsbətdir və gələcəkdə hər hansı bir ciddi problem görmür: "Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir".

Dövlət başçısı onu da qeyd edib ki, bu siyasətə ləkə vuran hər bir adam öz cəzasını alacaq: "Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir".

## *Fikrət Yusifov: "Burada söhbət daha çox xalqla təmasda olan məmurlardan gedir"*

O da məlumdur ki, bəzi yaramaz məmurların fəaliyyəti üzündən müəyyən sosial narazılıqlar yaranır, bir sıra problemlər üst-üstə yığılır. Bu da son nəticədə xoşagəlməz fəsadların yaranmasına gətirib çıxarır. Ümumilikdə, ölkə başçısı yaramaz məmurlar deyərkən, hansı əməl sahibi olan məmurları nəzərdə tutur?

Sözügedən məsələyə aydınlıq gətirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, burada söhbət daha çox xalqla təmasda olan məmurlardan gedir: "Hansılar ki, vətəndaşların bu və ya digər problemlərini həll etməlidirlər. Ancaq onlar bu problemləri həll etmək əvəzinə, insanları incidir, süründürməçiliyə yol verirlər. Bundan başqa, gördükləri iş müqabilində insanlardan rüşvət alırlar. Bununla da yaramaz hərəkətlər edib insanları dövlətdən, hakimiyyətdən və Prezidentdən narazı salırlar. Prezident çıxışında məhz bu qəbildən olan məmurları nəzərdə tuturdu. Hesab edirəm çox təqdirəlayiqdir ki, ölkə başçısı bu çağırışları açıq şəkildə edir. Ölkədə belə yaramaz məmurlara qarşı açıq mübarizə kampaniyası başlayıb. Fikrimcə, bu çox önəmli məsələdir. Hesab edirəm ki, bu sırada olan məmurların bir qisminin yaxın perspektivdə cəzalandırılması qaçılmazdır. Nəticədə bu, digər məmurlara yaxşı bir dərs olacaq. Çünki insanları incitmək, hakimiyyətdən narazı salmaq olmaz.

*"Hesab edirəm ki, bu sırada olan məmurların bir qisminin yaxın perspektivdə cəzalandırılması qaçılmazdır"*

Bu insanlar dövlətin vətəndaşı olduqları üçün məmurlar layiqincə onlara xidmət etməlidirlər. Prezident dəfələrlə bəyan edib ki, məmur xalqın xidmətçisidir. Ancaq məmur gedib xalqı incidirsə, insanların cibinə girib rüşvət alırsa və vətəndaşları hakimiyyətdən narazı salırsa, o zaman belə məmurlar sərt cəzalandırılmalıdır. Çox yaxşı haldır ki, artıq belə bir kampaniya start götürdü. Prezidentin məsələni bu şəkildə qoyması olduqca önəmlidir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın dünyada məsuliyyətli dövlət imici - ölkəmiz buna nələrin hesabına nail olub...

**"Azərbaycan dünya miqyasında özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləyib". Bunu Prezident İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edərkən deyib.**



Prezident bildirib ki, Azərbaycanda yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici dövlət borcu ən aşağı səviyyədədir. Digər infrastruktur layihələri, o cümlədən, sosial infrastrukturla bağlı layihələr uğurla icra edilib.

Ölkə başçısı onu da vurğulayıb ki, texnoloji inkişaf istiqamətində də böyük uğurlar əldə edilib: "Azərbaycan indi kosmik klubun üzvüdür, üç peykimiz var. Deyə bilərəm ki, bu yaxınlarda çox gərgin yarış nəticəsində Azərbaycan 2022-ci ildə Dünya Astronavtika Konqresinə evsahibliyi edəcək. Məlumat üçün bildirmək istəyirəm ki, bizim rəqiblərimiz Rio-de-Janeyro, Dehli və Sinqapur şəhərləri idi. Yəni bu şəhərlərin nə qədər inkişaf etmiş şəhərlər olması haqqında əlavə sözlərə ehtiyac yoxdur. Azərbaycan bu yarışda da qalib gəldi. Nəyin hesabına? Ona görə ki, dünya miqyasında bizim siyasətimizə çox böyük dəstək var, rəğbət var. Bizim sözümüzlə əməlimiz birdir. Azərbaycan dünya miqyasında özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləyib".

## *Fuad İbrahimov: "Bir sıra faktora görə məsuliyyətli ölkə kimi özünü təsdiq edə bilib"*

Azərbaycanın dünya miqyasında məsuliyyətli ölkə kimi özünü təsdiqləməsi çox ciddi uğurdur. Bu o deməkdir ki, dünya ölkələri arasında bizə etimad var. Bütövlükdə, ölkəmiz nəyin hesabına dünyada məsuliyyətli dövlət imici qazanmasına nail olub?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, Azərbaycan bir sıra faktora görə məsuliyyətli ölkə kimi özünü təsdiq edə bilib: "Birincisi, həyata keçirdiyi investisiya layihələrinə görə. İkincisi, hansısa regional layihələrin icra olunmasında iddialı çıxış edib və eyni zamanda, onu sona çatdırmağı bacarıb. Yəni ortaya qoyduğu iddia havada qalmayıb, praktiki olaraq reallaşdırıb. Bütün bu göstəricilər Azərbaycan barədə dünyada məsuliyyətli dövlət imicinin formalaşmasında başlıca rol oynayıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra 3 irimiqyaslı meqalayihə ilə bağlı iddia ortaya qoydu və bunu həyata keçirdi. Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəmərləri çəkildi. Digər tərəfdən, Bakı-Tiflis-Qars dəmir yolu tikilərək istismara verildi. Digər nəqliyyat və enerji layihələri ilə də bağlı ölkədə sürətli iş gedir.

*"Azərbaycan müstəqillik əldə etdikdən sonra 3 irimiqyaslı meqalayihə ilə bağlı iddia ortaya qoydu və bunu həyata keçirdi"*

Bundan başqa, Azərbaycan neçə ildir bir sıra beynəlxalq səviyyəli tədbirlərə, yarışlara çox uğurla evsahibliyi edir. Ümumən, bütün sahələrdə üzərinə düşən öhdəlikləri çox yüksək səviyyədə yerinə yetirir. Azərbaycan hakimiyyətinin ortaya qoyduğu siyasi iradə ölkəmizin imicinə müsbət təsir göstərir. Başqa bir tərəfdən, 4 il əvvəl baş verən devalvasiyanın ağır nəticələrinin aradan qaldırılması, sosial layihələrin həyata keçirilməsi bunda müsbət rol oynayıb. Bütün bunların kompleks şəkildə həyata keçirilməsi, əlbəttə ki, Azərbaycanın dünya miqyasında məsuliyyətli ölkə kimi özünü təsdiqləməsinə gətirib çıxarıb".

***Vidadi ORDAHALLI***

# Aydın Quliyev: "Cəmiyyət bir daha gördü ki, radikal müxalifət öz qrup maraqları və intriqalardan uzağa gedə bilmir"

**Müsavat Partiyası da ölkədə radikal aksiyalara cəmiyyətin heç bir maraq göstərməməsi kimi ciddi faktoru nəzərə almadığı üçün Bakının mərkəzində aksiya keçirmək cəhdi ilə fiaskoya uğradı. Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**



Onun sözlərinə görə, hakimiyyətin konkret ünvan göstərməsinə baxmayaraq, "Milli Şura" deyilən radikal qurumun təxminən 100-150 nəfərlik aksiyasının iflasa uğramasının ardınca Müsavat üzvlərinin də eyni uğursuz cəhdə əl atması ortaya bir sıra maraqlı məqamlar qoyur: "İcazə verilməyən yerdə Müsavat partiyasının cəmi 10-15 nəfər şəxslə aksiya keçirmək cəhdinin qarşısının alınacağı, aksiyaya ictimaiyyətin heç bir dəstək verməyəcəyi əvvəldən də məlum idi. Çünki ölkədə radikal aksiyalara heç bir sosial sifarişin olmadığı Azərbaycan xalqına çoxdan məlum olan faktdır. Bununla belə, Müsavat bilə-bilə bu uğursuzluğa getməklə əslində xalqın hansı rəydə olduğunu saya almadan hərəkət etdi və "Milli Şura" ilə mənasız rəqabət apardığını sübut etdi".

Ekspert bildirib ki, Müsavat Partiyasının uğursuz aksiyası radikal təşkilatlara xalqın heç bir ümid bəsləmədiyinin bariz nümunəsi oldu: "Şübhə yoxdur ki, cəmiyyət belə aksiyalardan mümkün qədər uzaq dayanmaqla göstərmək istəyir ki, radikalların əsas hədəfinin ölkədə sabitliyi pozmaq, xaos yaratmaqdan ibarət olduğunu yaxşı anlayır. Cəmiyyət bir daha gördü ki, radikal təşkilatlar guya hamının mənafeyinin müdafiəçisi olduğunu iddia etsə də, əslində, öz qrup maraqlarından və intriqalardan uzağa gedə bilmirlər. Aydın görünür ki, ayrı-ayrılıqda uğursuz aksiyalar keçirən Müsavatla "Milli Şura" təmsilçiləri arasında on illərlə davam edən intriqa və çəkişmələr bitməyib və bunun xalq mənafeyi ilə heç bir bağlılığı yoxdur.

Müsavatın son uğursuzluğu başqa bir maraqlı məqamı da üzə çıxardı. Radikallar Boliviyadakı məlum hadisələrin əsassız eyforiyasına qapılaraq reallıq hissini o qədər itirdilər ki, guya Bakıda da insanların həmin hadisələrin təsiri altında fəallaşacaqlarına ümid etdilər. Sonda isə məlum oldu ki, radikalların əsassız eyforiyasına baxmayaraq, Azərbaycan xalqı sabitliyi boş vədlərdən və boğazdan yuxarı müxalif mülahizələrdən üstün tutur. Bir daha nümayiş olundu ki, radikallardan fərqli olaraq, Azərbaycan xalqı ölkə üçün heç bir yad mübarizə formulunu və ya ssenarini məqbul hesab etmir.

**Müsavatın uğursuz piket cəhdinin hakimiyyət orqanlarının rəsmi xəbərdarlığından sonra baş verməsi növbəti dəfə göstərdi ki, hakimiyyət orqanları prosesləri qanun müstəvisinə çəkməkdə nə qədər maraqlıdırsa, radikallar da zorakı mübarizəyə bir o qədər maraqlıdır".**

# Müsavat özündən əvvəl "gözü çıxmış" Milli Şuradakı qardaşlarının rüsvayçı piket uğursuzluğundan niyə nəticə çıxarmadı...

**Bakının mərkəzində icazəsiz mitinq və piketlər keçirmək istəyən radikal dairələrin növbəti fiaskosuna şahidlik etdik. Milli Şura və AXCP-nin Əli Kərimli qanadının ard-arda bir neçə belə uğursuz cəhdindən nəticə çıxarmaq əvəzinə, Müsavat da analoji addım atmağa cəhd göstərdi.**




***Samir Adıgözəlli:** "Bir yas yeri olanda 50 dəfə bundan çox adam toplaşırsa, həmin partiyalar özlərini bu şəkildə nüfuzdan salmamalıdırlar"*

***Səxavət Soltanlı:** "Aksiyamızın məqsədi nə idisə, ona nail olduq"*

Hadisə yerindən təqdim olunan reportajlardan da göründü ki, aksiyaya cəmi 10-15 nəfər adam qatılıb. Yaşanan biabırçılıq Bakı Şəhər Baş Polis İdarəsinin Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyəti qarşısında icazəsiz aksiya keçirməyə cəhd etməsi ilə bağlı yaydığı açıqlamada da qeyd edilib: "Müsavat Partiyasının üzvləri paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ediblər. Müraciətə uyğun olaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun müvafiq tələblərinə əsasən, ictimai asayişin pozulmasının qarşısının alınması və şəhərin mərkəzi hissəsində keçirilməsi onun yerinin dəyişdirilməsi formasında məhdudlaşdırılaraq paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazası təklif olunub.

Bu barədə müraciətin müəlliflərinə rəsmi məlumat verilmiş və onlar müəyyən edilməmiş yerlərdə keçiriləcək hər hansı aksiyanın qarşısının alınacağı, baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən rəsmi xəbərdar ediliblər.

Buna baxmayaraq, noyabrın 12-də, saat 15 radələrində ümumi sayı təxminən 15 nəfərdən ibarət şəxs Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında qanunsuz aksiya keçirməyə cəhd göstərib. Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin qarşısı alınıb".

Müsavat Partiyasının icazəsiz aksiyasına çox az sayda tərəfdar gəlməsinin səbəbi nə ilə bağlıdır?

Müsavat Partiyasının funksioneri Səxavət Soltanlı hesab edir ki, bunun obyektiv səbəbləri olub: "Say heç də rəsmi qurumların ifadə etdiyi kimi deyil. Müsavat Partiyasının BŞİH-nin qarşısında keçirdiyi aksiya zamanı saxlanan 20-dən çox aksiya iştirakçısı Səbael Rayon Polis İdarəsinə, xeyli sayda da aksiya iştirakçısı başqa polis bölmələrinə aparıldı.

Aksiya başlamamışdan əvvəl də Müsavat başqanı Arif Hacılı başda olmaqla xeyli sayda müsavatçı polisə aparılaraq orada saxlanıb və ya yaşadıqları mənzillər polis nəzarətinə götürülmüşdü.

Aksiyadan 1 gün əvvəl isə başqan müavini Razim Əmiraslanli saxlanıb. Sərbəst toplaşma azadlığının təmin edilməsini tələb etdiyimiz aksiyada "sərbəst toplaşma azadlığı" ilə bərabər "ifadə azadlığı" şuarları səsləndi.

Aksiyamızın məqsədi nə idisə, ona nail olduq, hakimiyyətin, yerli və beynəlxalq ictimaiyyətin diqqətini bir daha toplaşma azadlığının olmamasına yönəltdik".

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli isə hesab edir ki, belə aksiyalarla radikal müxalifət özünü daha da rüsvay edir: "Bunlar anlamırlar ki, sosial bazası olmayan qurum hansısa uğurlu aksiya keçirmək iqtidarında deyil. Məqsədləri bəllidir, bir balaca səs-küy salsınlar. Yəni biz də varıq deməklə, xaricdəki ağalarından qrant qopara bilsinlər. Müsavatın son aksiyasın cəmi 15 adam gəldi. Bir yas yeri olanda 50 dəfə bundan çox adam toplaşırsa, həmin partiyalar özlərini bu şəkildə nüfuzdan salmamalıdırlar. Ya təşkilatlanmalı, ya da siyasi arenanı üzüsulu ikən tərk etməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Perunun Azərbaycanda Səfirliyini bağlaması bizdən asılı səbəblərlə əlaqəlidirmi?

**Perunun Azərbaycandakı Səfirliyinin fəaliyyətini dayandıracağı ilə bağlı məlumatlar yayılıb. Bu ölkənin Bakıdakı diplomatik nümayəndəliyindən mətbuata verilən məlumata görə, bununla əlaqədar inzibati prosedurlara başlanıb və ilk addım olaraq, Perunun Bakıdakı Səfirliyinin konsulluq şöbəsi yalnız dekabrın 15-dək fəaliyyət göstərəcək.**



Səfirlikdən onu da bildiriblər ki, səfirlik Azərbaycandakı fəaliyyətini 2020-ci il martın 1-də tamamilə dayandıracaq: "Bu tarixdən sonra maraqlananlar Perunun Ankaradakı Səfirliyi ilə əlaqə saxlamalıdırlar".

Qeyd edək ki, Azərbaycanda Peru Səfirliyi 2017-ci ilin iyun ayında açılıb. İki ölkə arasında diplomatik əlaqələr 1996-cı ilin iyun ayının 25-də qurulub.

Hər iki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər yaradılıb. Lakin iqamətgahı başqa ölkədə olmaqla Azərbaycan Respublikasının Peru Respublikasında fövqəladə və səlahiyyətli səfiri var. Belə ki, Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarındakı səfiri, həmçinin, Peru Respublikasında da akkreditə olunub.

## *"Bu qərar ölkənin daxili vəziyyəti və üzləşdiyi maliyyə məsələləri ilə əlaqədardır"*

Parlamentlərarası əlaqələrə gəlincə, Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Peru parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Perunun Azərbaycandakı Səfirliyi fəaliyyətini niyə dayandırır?

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Bakı-Xəbər"ə bildirdi ki, Perunun Səfirliyinin mart ayından fəaliyyətini dayandırması bu ölkənin daxili vəziyyəti ilə bağlıdır: "Perunun Azərbaycandakı Səfirliyinin bağlanması ilə bağlı qərar bu ölkənin daxili vəziyyəti və üzləşdiyi maliyyə məsələləri ilə əlaqədardır".





***Leyla Abdullayeva:** "Peru Azərbaycandakı Səfirliyini müvəqqəti olaraq bağlamaq barədə qərar verib"*

***Qabil Hüseynli:** "...burada hər hansı bir başqa səbəb görmürəm"*

L.Abdullayevanın sözlərinə görə, səfirliyin müvəqqəti bağlanması Azərbaycan-Peru əlaqələrinə, münasibətlərinə heç bir mənfi təsir göstərməyəcək.

Politoloq Qabil Hüseynlinin fikrincə, Perunun Azərbaycanda öz səfirliyini bağlaması Azərbaycanla diplomatik sahədə hər hansı bir gərginliklə bağlı deyil: "Perunun öz səfirliyini gələn ildən bağlayacağı ilə bağlı verdiyi qərar bu ölkədə yaşanan ciddi maliyyə böhranı və daxildəki problemlərlə bağlı ola bilər. Çünki Peru kiçik dövlətdir və o qədər də varlı deyil.

Hesab edirəm ki, bu yalnız maliyyə amili ilə bağlıdır, burada hər hansı bir başqa səbəb görmürəm".

***İradə SARIYEVA***

# Dağlıq Qarabağ azərbaycanlıları Lavrovun İrəvandakı çıxışını kəskin etirazla qarşıladı...

**Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun İrəvanda səsləndirdiyi məlum fikirlərlə bağlı bəyanat yayıb. Bəyanatda deyilir:**



"Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bəyan edirik ki, Serqey Lavrov kimi təcrübəli bir diplomatın bu cür ifadələr səsləndirməsi ciddi təəssüf və təəccüb doğurur.

Keçən ay Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edən Prezident İlham Əliyev bu məsələyə aydınlıq gətirərək bildirmişdi ki, "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Dağlıq Qarabağın əhalisi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində işğal olunmuş digər 7 rayonun əhalisi kimi etnik təmizləməyə məruz qalmışdır.

Münaqişənin həllinə məsul olan ATƏT-in Minsk prosesi çərçivəsində Dağlıq Qarabağın erməni və Azərbaycanlı icmaları maraqlı tərəflər kimi müəyyən olunmuşdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm beynəlxalq təşkilatların sənədlərində də heç vaxt "Dağlıq Qarabağ xalqı" məfhumu qeyd edilməyib.

Xatırlatmaq istərdik ki, 2019-cu il də Rusiyanın da təmsil olunduğu ATƏT-in Minsk Qrupunun həmsədrləri iki dəfə regiona səfər edib və hər iki səfərin yekun birgə bəyanatlarında Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları ilə görüşdüklərini ayrıca qeyd ediblər.

Serqey Lavrovun brifinqdə səsləndirdiyi fikirlər həm də ona görə təəssüf hissi doğurur ki, o, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf 7 rayondan 1 milyondan çox köçkün düşmüş azərbaycanlının öz torpaqlarına geri qayıtmaq hüququnu brifinqdə vurğulamır.

Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktının tələbidir.

Rusiya xarici işlər naziri Serqey Lavrov özü də beynəlxalq tədbirlərdə çıxışı zamanı BMT nizamnaməsinə riayət edilməsi və BMT TŞ-nın qətnamələrinin yerinə yetirilməsini tələb edir və buna görə digər dövlətləri tənqid edir.

Biz Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bir daha bəyan edirik ki, icmamızın 80 mindən çox azərbaycanlı üzvü öz yurduna geri dönəçəkləri günü gözləyir. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vasitəcilik missiyası həyata keçirən həmsədr dövlətlərdən və nüfuzlu beynəlxalq təşkilatlardan ədalətli mövqe gözləyirik. Yalnız bundan sonra Dağlıq Qarabağda sülh bərqərar ola və keçmişdə olduğu kimi azərbaycanlılarla ermənilər sülh şəraitində Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yaşaya bilərlər".

***Baki-xeber.com***

# Paşinyanın Avropa və ABŞ-la inteqrasiya layihəsi iflasla bitdi - Avrasiya Birliyindən "yaxşısı yox imiş"...

**"Avrasiya İttifaqı bizim üçün çox vacibdir". Bunu Ermənistan Baş naziri Nikol Paşinyan amerikalı jurnalistin "Ermənistan Avropa Birliyinə qatılmaq istəyirmi?" sualını cavablandırarkən deyib. Onun sözlərinə görə, Avropa Birliyinə üzv olmaq Ermənistan üçün prioritet məsələ deyil:**



"Mən belə düşünmürəm, ona görə ki, biz hazırda Avrasiya İttifaqının üzvüyük. Biz öz münasibətlərimizi bu təşkilatda inkişaf etdirməyə hazırlaşırıq. Bu, iqtisadi ittifaqdır və o bizim üçün vacibdir. Ona görə də hələ gündəmimizdə belə məsələ yoxdur".

Ermənistanda Nikol Paşinyan hakimiyyətə təzə gələndə Qərbin ondan müəyyən gözləntiləri var idi. Gözləntilər əsasən Ermənistanın Avropa qurumlarına inteqrasiya istiqamətində səylərini artıracağı ilə bağlı idi. İlk vaxtlar Paşinyan bu yöndə müəyyən siyasi reveranslar etdi. Avropa təsisatlarından pul qoparmaqdan ötrü üstüörtülü vədlər verdi, bir sıra ölkələrə səfərlər etdi. Ancaq onun bu yöndə səyləri nəticəsiz bitdi. Çünki Qərb ondan islahatlar həyata keçirməyi və konkret mövqe ortaya qoymağı tələb etdi. O isə bunların heç birini həyata keçirmədi. Əksinə, Rusiya ilə daha da yaxınlaşmaq yolunu tutdu. O baxımdan Paşinyanın məlum açıqlaması göstərdi ki, Ermənistanın Qərblə inteqrasiya layihələri iflasa uğradı.

***Əli Orucov:** "İqtisadiyyatı və siyasəti birbaşa Rusiyaya bağlı olan bir forpost dövlətin Avropa Birliyinə problemlərdən başqa verə biləcəyi heç nəyi yoxdur"*

Maraqlıdır, Paşinyanın məlum yanaşması Qərbdən ona olan etimadın daha da azalmasına səbəb ola bilərmi? Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucov bunu istisna etmədi: "Əvvəla onu demək istərdim ki, Ermənistan Avropa Birliyinə daxil olmaq və yaxud da quruma inteqrasiya olunmaq üçün gərəkən şərtlərə cavab vermir. Ermənistanın bütün sahələri Rusiyadan birbaşa asılıdır. İqtisadiyyatı və siyasəti birbaşa Rusiyaya bağlı olan bir forpost dövlətin Avropa Birliyinə problemlərdən başqa verə biləcəyi heç nəyi yoxdur. Paşinyana sualı verən jurnalist də, görünür, naşıdır və Cənubi Qafqaz regionunu, o cümlədən də Ermənistanı yaxşı tanımır. İkincisi, Qərb onsuz da Paşinyandan müsbət nəticələr gözləmirdi. Siyasi dairələr Moskvadan asılılığını nəzərə alaraq Baş nazirin üzərinə o qədər də getmirlər. Həm Ermənistan rəhbərliyi, həm də Qərb yaxşı başa düşür ki, xarici siyasətdə kardinal dəyişiklik etmək ölkədə ciddi fəsadlara yol açacaq. Bu, Rusiyanın bir subyektinin Qərbə inteqrasiyası kimi bir şey olardı ki, bu da nəzəri və praktik baxımdan mümkün deyil. Qərb üçün vacib ölkələrdən biri də Ukraynadır. Ancaq Ukraynanın Avropaya inteqrasiyasına, AB-yə üzv olmasına ehtiyatla yanaşırlar. Ermənistan isə nə geopolitik, nə iqtisadi resursları, nə də investisiya baxımından Qərb üçün cəlbedici ölkə deyil. Qərb Ermənistana qarşı yumşaq siyasət yürütməklə bu ölkəni Moskvanın nəzarətindən çıxarmağı hədəfləyir. Qərbin özünün də Ermənistanın Avropa Birliyinə üzv olmasına indiki şəraitdə marağı yoxdur. Ermənilər belə yollarla özlərinin vacibliyini, əhəmiyyətini gözə soxmağa çalışırlar. Bu isə siyasi blefdir. Bütün hallarda, Paşinyan məlum açıqlaması ilə bəyan etdi ki, Qərbin bu yöndə gözləntiləri reallaşmayacaq".

*Vidadi ORDAHALLI*

# "Google maps"ın əcaib ixtirası - "Dağlıq Qarabağı Azərbaycan işğal edib"...




*"Bizim tərəfimizdən həm siyasi, həm də hərbi sahədə daha kəskin addımlar atılmalıdır"*

**"Google maps" Azərbaycan xəritəsində Dağlıq Qarabağın sanki Azərbaycan tərəfindən işğal edildiyini göstərir. "Asasmedya.info"nun yaydığı məlumatda qeyd olunur ki, "Google maps"da Azərbaycanın Dağlıq Qarabağ ərazisi, Xankəndi, Şuşa, Kəlbəcər, Qubadlı, Əsgəran, Minkənd, Ağdərə, Vəngli, Heyvalı və başqa bölgələrin adları Azərbaycan türkcəsi ilə yanaşı, həm də erməni dilində qeyd olunub.**

***Faiq Ələkbərli:** "Google maps"ın rəhbərliyində çalışanlar arasında erməni əsilli şəxslər olduğu üçün..."*

Qeyd edək ki, "Google maps" tərəfindən törədilmiş bu təxribat Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlikdir.

"Google maps" tərəfindən törədilmiş bu təxribatla bağlı fikir bildirən tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Google maps"ın rəhbərliyində çalışanlar arasında erməni əsilli şəxslər də var. Hətta onlara bir neçə dəfə Azərbaycanın xəritəsi göstərilib. Xəritə ilə tanış olanlar iddia edirlər ki, baş vermiş təxribatdan xəbərsizdirlər: "Bu hal onu deməyə əsas verir ki, həmin yerdə çalışan ermənipərəstlərin rolu əsasında Dağlıq Qarabağın sanki Azərbaycan tərəfindən işğal edildiyi göstərilir. Azərbaycanın Dağlıq Qarabağı işğal edən ölkə kimi tanınması və ya işğal olunan ərazilərin adlarının erməni dilində yazılması ölkəmiz tərəfindən aparılan işlərin düzgün şəkildə qurulmaması ilə bağlıdır. Onu da nəzərə almaq lazımdır ki, bir çox məsələdə kəskin mövqe ifadə edilmədiyi üçün, xoşagəlməz hallarla rastlaşırıq. İşğal altında olan torpaqlar geri alınmadığı halda bu cür təxribatların sayı durmadan artacaq. Ermənilər gah qondarma "Artsax" bayramını qeyd edəcək, ya Dağlıq Qarabağı Ermənistan ərazisi kimi göstərəcək, ya da Azərbaycanı işğalçı ölkə kimi göstərəcəklər. Bizim tərəfimizdən həm siyasi, həm də hərbi sahədə daha kəskin addımlar atılmalıdır".

Tarixçi-alim onu da vurğuladı ki, ermənilər öz məkrli işlərini görməkdə davam edirlər: "Bizim mövqeyimiz daha sərt olmalıdır. Azərbaycan tərəfi sözdən əmələ keçməlidir".

*Günel CƏLİLOVA*

# Azərbaycanlı şair-həkim Fəzail İsmayıl iranlı Abbas Lisaninin hüquqlarını müdafiə təşkilatı yaradacaq

**Hazırda İranda həbsxana həyatı yaşayan Güney Azərbaycandan olan fəal Abbas Lisaninin hüquqlarının müdafiəsinə qoşulanlar sırasında şair-həkim Fəzail İsmayıl da var.**



F.İsmayıl son dövrlər A.Lisaninin hüquqlarının müdafiəsi istiqamətində müxtəlif yazılar və fikirlərlə çıxış edir. F.İsmayıl bununla bağlı "Bakı-Xəbər"ə verdiyi açıqlamada bildirdi ki, məqsədi Azərbaycanda Abbas Lisaninin hüquqlarının müdafiəsi təşkilatı yaratmaqdır. "Abbas Lisani Azərbaycanın bütövlüyü uğrunda mücadilə verir. Zaman-zaman o taylı-bu taylı Azərbaycanın şairləri vətənin bölünməsindən, dərdlərimizdən şeirlər yazıblar. Amma çox təəssüf ki, Azərbaycan xalqının qəhrəman oğlu Abbas Lisaninin bu günündə şairlər susur. Bu da məni narahat edir. İkinci bir mühüm məsələ odur ki, Abbas Lisaninin müdafiəsinə bütün Türk dünyası qoşulmalıdır. Biz türk mənəviyyatını daha da ucalara qaldırmalıyıq. Azərbaycanda özünü türkçü kimi təqdim edən siyasi partiyalar da Abbas Lisaninin müdafiəsinə qoşulmalıdırlar, amma onlar qoşulmurlar. Mənim məqsədim Abbas Lisaninin hüquqlarının müdafiəsi təşkilatı yaratmaqdır. Onun hüquqlarının daha geniş səviyyədə müdafiəsinə nail olmağa ehtiyac var. Bu gün Abbas Lisani Cənubi Azərbaycan türklərinin öz dillərində təhsil alması, bütün milli hüquqlardan yararlanması üçün mübarizə aparır və bu səbəbdən də zindandadır. Bir vaxtlar Mandelanın zənci xalqı uğrunda apardığı azadlıq mübarizəsini Abbas Lisani də Cənubi Azərbaycanda aparır" - deyə F.İsmayıl qeyd etdi.

***Fəzail İsmayıl:** "Azərbaycanda özünü türkçü kimi təqdim edən siyasi partiyalar da Abbas Lisaninin müdafiəsinə qoşulmalıdırlar, amma onlar qoşulmurlar"*

A.Lisani haqqında saysız publisist və poetik yazının müəllifi olan F.İsmayıl bildirdi ki, A.Lisaninin hüquqlarını müdafiə təşkilatını yaratdıqdan sonra onu qeydiyyatdan keçirmək üçün Ədliyyə Nazirliyinə müraciət edəcək.

*İradə SARIYEVA*

# Prezident müxalifətin bəzi məmurları xüsusi qərəzlə qaralama planlarından xəbərdar olduğunu nümayiş etdirdi...

**Azərbaycan Prezidenti İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.**

Cənab Prezident icra başçıları ilə görüşdə bir daha onlara ictimai nəzarətin vacibliyindən danışıb, lakin bu amildən də kimlərinsə, xüsusilə də radikal dairələrin sui-istifadə edəcəyinə imkan verilməyəcəyini bildirib: "Digər tərəfdən, icra başçıları peşəkar olmalıdırlar, bilikli olmalıdırlar və onlar işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən, yerli icra orqanları bu məsələyə necə münasibət göstərirlər. Əgər gözlərini yumurlarsa, yaxud da ki, özləri bu çirkin işlərə qarışırlarsa, əlbəttə ki, layiqli cəzalarını da alacaqlar və almalıdırlar. Bir daha vətəndaşlara müraciət etmək istəyirəm, əgər görsəniz ki, rəhbər şəxslər əyri yola gedirlər, mütləq məlumat verin, mütləq xəbər göndərin və biz, əlbəttə ki, bütün siqnalları yoxlayıb düzgün qərar qəbul edəcəyik. O da həqiqətdir ki, bəzən hansısa şəxsi zəmində dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür. Xüsusilə özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır. Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar. Ona görə yerlərdən gələn hər bir siqnala obyektiv baxılacaq və sizin fəaliyyətinizə obyektiv qiymət veriləcək. Ona görə siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda 4-cü regional inkişaf proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bu günə qədər öz həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməlisiniz, reaksiya verməlisiniz və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın".

Ölkə başçısının radikal müxalif dairələrin ictimai nəzarət adı ilə məmurları əsassız yerə hədəfə götürməsi ilə bağlı bildirdiyi iraddan hansı nəticəni çıxarmaq olar?

***Elşən Həsənov:** "Bu heç də o anlama gəlməməlidir ki, onlardan olunan şikayətlər əsası olmayan dedi-qodu xarakterli olmalıdır"*




*"Radikal dairələrin təsiri altında olan bəzi elektron KİV-in də bu istiqamətdə fəaliyyəti heç də ürəkaçan deyil"*

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin bu məsələyə tam aydınlıq gətirməsi lap yerinə düşdü: "Biz mərkəzçi mövqedə dayanan partiyayıq. Yəni yeri gələndə hakimiyyəti də sərt tənqid edirik. Amma bu o demək deyil ki, yaxşı addımları təqdir etməməliyik. Azərbaycanda hansısa dairələr sanki özlərindən müxalifət standartları icad ediblər. Nədir bu? Sən daim hökuməti tənqid etməli, hətta yeri gələndə təhqir də etməlisən. Yox, nə vaxtsa, hakimiyyətin yaxşı bir addımını görüb təqdir edirsənsə, onda olursan bunların gözündə satılmış. Tamamilə yanlış yanaşmadır. Artıq necənci dəfədir ölkə başçısı icra başçılarına ictimai nəzarətin vacibliyindən danışır. Əslində, bu amil bizim ölkədə hər zaman olub. Elə sizin çalışdığınız media daim bu funksiyanı həyata keçirib. Biz sosial şəbəkələri daim izləyirik, hər dəfə ölkə başçısı belə çağırış edəndə bəzi dairələr bundan sui-istifadə etməyə başlayırlar. Məmurların üzərinə basqılar şiddətlənir. Ölkə başçısı belə niyyətdə olanların ünvanını dəqiq göstərdi. Bildirdi ki, məmurlarla bağlı daxil olan bütün informasiyalar ətraflı araşdırılacaq. Gəlin unutmayaq ki, məmur da vətəndaşdır, onun da hüquqları var. Bəli, bir sıra sahələrdə biz də məmurların yarıtmaz fəaliyyəti ilə rastlaşırıq. Amma bu heç də o anlama gəlməməlidir ki, onlardan olunan şikayətlər əsası olmayan dedi-qodu xarakterli olmalıdır. Məmurların neqativ fəaliyyətindən şikayət olunmasının mən də tərəfdarıyam. Həmin şikayətlər konkret faktlara və dəlillərə söykənməlidir. Belə olduqda, ictimai nəzarətin də bir effekti olar. Radikal dairələrin təsiri altında olan bəzi elektron KİV-in də bu istiqamətdə fəaliyyəti heç də ürəkaçan deyil. Təəssüf ki, onlar da ictimai nəzarəti öz ideoloqlarının bildiyi səviyyədə aparırlar".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan rejiminin xalqı yeni aldatma üsulu özünə qarşı çevrilir - hərbi büdcə artımının dondurulması Paşinyanı yeni ittihamlarla üzləşdirir...

**Azərbaycanın müdafiə xərclərini davamlı şəkildə artırması təkcə Ermənistanda yox, onun havadarları arasında da ciddi təşvişə yol açıb və bu da əbəs deyil. Ən azı o baxımdan ki, belə vəziyyət Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli zamanı Azərbaycanın üstünlüyünün daha böyük fərqlə artmasına xidmət edir.**

Bunlara paralel olaraq Azərbaycan onu da açıq bəyan edir ki, münaqişə həllini tapmayana qədər müdafiə sahəsinə böyük diqqət ayırmaqda davam edəcək, eyni zamanda konfliktin hərbi həlli də daim gündəmdə olacaq.

2020-ci ilin büdcə müzakirəsi zamanı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə də bu xüsusda maraqlı fikirlər səsləndirib: "Bəzi təşkilatlar bizi tənqid edir ki, Azərbaycanda müdafiə xərcləri artır. Azərbaycanın dövlət büdcəsi son illər dəfələrlə artıb. Əlavə artımlar nəticəsində daha çox artacaq. Hərbi xərclərin çoxalması obyektiv zərurətdən irəli gəlir". Komitə sədri bildirib ki, bu sahəyə bundan sonra da diqqət yönəldiləcək: "Artıq Azərbaycanın çox güclü müdafiə potensialı var. Bu, bölgədə ən güclü potensialdır və biz bunu daha da artırmalıyıq. 2020-ci ilin büdcəsi bu tələblərə cavab verir. Azərbaycan həm müdafiə qabiliyyətini gücləndirməsi, həm özünün iqtisadi təhlükəsizliyini, həm də ölkənin iqtisadi gücünün artması və bu əsasla əhalinin keyfiyyətli yaşayış səviyyəsini yüksəltmək istiqamətində daha cəsarətli addımlar atmaq imkanına malik olmalıdır".

Bu açıqlamalardan aydın görünür ki, Azərbaycan, kənardan səslənən bütün tənqid və iradlara baxmayaraq, müdafiə sahəsində müəyyən etdiyi siyasəti davam etdirəcək. Ermənistanın "Pastinfo" nəşri yazır ki, bu hal Bakının hərbi üstünlüyünün yüksəlməsini təmin edir və İrəvanın buna qarşı çıxması getdikcə mümkünsüzləşir: "Azərbaycanda müzakirəsi başlanan 2020-ci ilin dövlət büdcəsinin layihəsinə görə bütün dövlət büdcəsi xərcləri 1.7% artdığı halda, müdafiə xərclərinin büdcəsi xeyli, yəni 20.9% artırılmaqla, 2.267 milyard dollara çatıb. Bunun 945 milyon dolları silah alışı və hərbi-sənaye sərmayəsi üçün nəzərdə tutulub. Bu faktlar göstərir ki, Bakı Qarabağ məsələsində istəyinə, güc yolu ilə olsa belə, nail olmaqda israrlıdır və Azərbaycan açıq şəkildə müharibəyə hazırlaşır. Rəqibin gözümüzün önündə bu istiqamətdə konkret addımlar və hərəkətlər etdiyini görməklə Ermənistan hökumətinin 2020-ci ildə dövlət büdcəsini 14% artırdığı bir vaxtda hərbi xərclərin artımını dondurmasını xəyanət və ya şüursuz qayğı adlandırmaq olar. Eyni zamanda, bunlara cavab olaraq, diqqətsiz hökumət kimi, diqqətsiz parlament çoxluğu kimi, həm də diqqətsiz və bir qrup insanın şüursuzca baş naziri təriflədiyini görürük. Təəssüf ki, nə Paşinyan, nə də erməni xalqının böyük bir hissəsi "Ali Baş Komandan" ifadəsinin adi bir söz birləşməsi olmadığını başa düşür. Ancaq tam fərqli təzahürlərin şahidiyik - festivaldan festivala yeməklərdən daddmaq, nümayişkarcasına bəyanatlar, selfilər, flaş-mob və canlı yayımlara şahidlik edirik. Burada "iqtisadi inqilab"a çatmaq uğrunda təmtəraqlı bəyanatlardan başqa heç bir şey görmədik, bu, baş nazirin və komandasının Ali Komandan məqamının ciddiliyini dərk etmədiyindən xəbər verir. Bu diqqətsizliyə son qoymasaq və müharibə şəraitində yaşayan bir ölkənin qaydaları ilə yaşamağı öyrənməsək, bu dəfə Qarabağ üçün müharibədə, çətin ki, yeni nəsə qazana bilək. Əksinə, Bakının və İrəvanın addımlarının müqayisəsi Azərbaycanın Qarabağı öz nəzarətinə daha tez qaytaracağını söyləməyə əsas verir". Erməni psixoloq Samvel Xudoyan da bildirir ki, Paşinyan dəbdəbənin dalınca düşdüyü bir vaxtda Azərbaycan real addımlar atır: "Dəbdəbələrin arxasınca gedən adam xalq üçün işləməyəcək, bu, dəyər sistemi məsələsidir. Ermənistan baş naziri üçün bahalı təyyarənin alınması vəziyyəti daha aydın təsvir etməyə imkan verir. Əgər sən kasıb, müharibə aparan dövlətdə silah əvəzinə təyyarələr alırsansa, mövqelərin səmimi olub-olmamasını qiymətləndirməyimiz üçün bu, böyük problemdir".

Ermənistanda bir çoxlarını narahat edən digər məsələ budur ki, gələn il ölkə hərb sahəsinə hökumətin vəd etdiyi həcmdə də vəsait ayıra bilməyəcək. Buna əsas səbəb hərb üçün nəzərdə tutulan xərclərin pisləşən sosial sahəyə yönəldilməsi ehtimalının artmasıdır. Nikol Paşinyan hakimiyyəti Ermənistanın rifah səviyyəsinin artırılması ilə bağlı bir sıra vədlər versə də, bu özünü doğrultmayıb. Əlverişsiz geosiyasi vəziyyət, işğalçılıq siyasəti elan edilən inkişaf yolunun ancaq kağız üzərində qaldığını göstərir. Bu isə sosial narazılığı artırır və Paşinyan belə vəziyyəti özü üçün ciddi təhdid sayır. Ona görə də, yayılan məlumatlara görə, Paşinyan hakimiyyətini qorumaq üçün hərbi xərcləri azaldaraq bunu sosial sferaya yöənltmyi düşür. Bu isə o deməkdir ki, gələn il ölkənin hərbi xərcləri artmaq əvəzinə azalacaq. Hadisələrin məhz bu səpkidə inkişafını Azərbaycan ordusunun ehtiyatda olan general-leytenantı Yaşar Aydəmirov da istisna etmir. O bildirib ki, Ermənistanda büdcədən ayrılan vəsaitlə ordunun heç 10-15 faizini saxlamaq mümkün deyil: "Ermənistan ordusu heç hərbi təlimlərə belə vəsait tapa bilmir. Orada əhalinin sosial vəziyyəti həddindən artıq ağırdır. Xarici yardımlar hesabına həm ordunun, həm də əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq mümkün deyil. Ona görə də xarici yardımlar Ermənistanın nə ordusunu xilas edəcək, nə də iqtisadiyyatının inkişafına təkan verəcək. Bunun üçün böyük miqdarda vəsait lazımdır".

Y.Aydəmirov hesab edir ki, Ermənistan işğal etdiyi Dağlıq Qarabağı və ətraf rayonları Azərbaycana qaytarsaydı, inkişafı da çox yüksək səviyyədə olardı: "Həmçinin təkcə Dağlıq Qarabağda deyil, hətta Ermənistan ərazisində yaşayan bütün ermənilərin ərzaq və digər təminatları, ölkənin iqtisadiyyatı və gəlirləri artardı. Bu bir zarafat deyil, reallıqdır. Ermənistanın başqa çıxış yolu yoxdur. Bir ölkəyə nə qədər yardım edəcəklər? Yardım verən bunu bir dəfə, iki dəfə və ya üç dəfə edər. Amma yardımla nə ordu, nə də iqtisadiyyatı saxlamaq olar. Axı, beynəlxalq maliyyə qurumları krediti qaytarmaq iqtidarında olan dövlətlərə verir. Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə qurumları çox gözəl bilirlər ki, Ermənistan onlara pul qaytarmaq gücündə deyil".

Xatırladaq ki, Ermənistan mətbuatında yayılan məlumatlara görə, ölkədə büdcə kəsirinin aradan qaldırılması məqsədilə Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə qurumları ilə danışıqlar davam etməkdədir və ilin sonunadək təxminən 150 milyon ABŞ dolları məbləğində kreditin alınması planlaşdırılır. Yeni hökumətin ilyarımlıq fəaliyyəti nəticəsində dövlət borcunun miqdarı artmaqda davam edib. Erməni müxalifəti isə hökuməti artan borclanmalara qarşı qeyri-konstruktiv fəaliyyətdə günahlandırır. Y.Aydəmirov qeyd edir ki, yaranmış vəziyyətdən sadə bir çıxış yolu var, o da Ermənistan hərbi qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması ilə üzərindəki yükün azaldılması və ağır sosial-iqtisadi vəziyyətdə olan ermənilərin güzəranının yaxşılaşdırılması üçün maliyyə vəsaitinin məqsədyönlü xərclənməsidir:"Düşünürəm ki, Ermənistanda gələn ilin büdcə xərcləmələrində müdafiə sektoruna ayrılan maliyyə vəsaiti azaldılacaq. Çünki Ermənistanda əhali hökumətdən narazıdır. Əhalinin narazılığı artdıqca hökumət də müdafiə xərclərini azaltmağa məcbur olacaq. Ermənistanın yeganə xilas yolu Dağlıq Qarabağ probleminin həllindən keçir. Yəni Ermənistan yalnız Dağlıq Qarabağı Azərbaycana qaytarandan sonra inkişaf edə bilər. Dağlıq Qarabağı qaytardıqdan sonra özlərinin yaşayışına baxsalar, nə qədər inkişaf etdiklərini görərlər. Hesab edirəm ki, hətta Ermənistan əhalisinin vəziyyəti çox sürətlə yaxşılaşacaq. Çünki işğal etdikləri torpaqları təhvil versələr, Azərbaycan onların yeməyini də, çörəyini də verəcək. Hesab edirəm ki, Ermənistanın başqa çıxış yolu yoxdur. Yeganə yolu ancaq və ancaq budur. Hamı bilir ki, Azərbaycan ordusu Ermənistan ordusu ilə müqayisəolunmaz səviyyədədir. Çünki bizim orduda əsas silahlar, yardımçı silahlar, böyük silahlar, aviasiya sahəsi, Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələri təkmilləşdirilir və müasirləşir. Silahlı Qüvvələrimiz üçün yeni silahlar alınır. Ermənistanda isə ordunun silah-sursatını modernləşdirməyə imkanları yoxdur". Bütün bunlar Azərbaycan və Ermənistan ordularının inkişaf səviyyəsinin yenə fərqli müstəvidə olacağını, ölkəmizin düşmən üzərində hərbi üstünlüyünü bundan sonra da artıracağıın deməyə əsas verir. Xatırladaq ki, ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış böyük həcmdə ən müasir, dəqiq məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu da ordumuzun qüdrətinin artmasına əvəzsiz töhfələr verib. Xüsusən də son illər ərzində hərbi potensialımız xeyli dərəcə artaraq Ermənistanla Azərbaycan arasında hərbi balansı ölkəmizin xeyrinə əhəmiyyətli dərəcədə dəyişib. İndinin özündə də düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə silahlanmaya inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli döyüş texnikası, eləcə də digər hərbi təyinatlı məhsullar daxil edilir. Azərbaycan müxtəlif ölkələrdən müasir tipli döyüş təyyarələri, artilleriya qurğuları, zirehli texnika, rabitə vasitələri, pilotsuz uçuş aparatları və digər texnikalar alır. Eyni zamanda, ordumuz Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsullarla da təchiz olunur. Ermənistan isə bütün bunlardan məhrumdur. Gələn il üçün bu ölkədə hərbi xərclərin azalmasının qaçılmaz orlması fonunda düşmən ordusunu daha rəzil vəziyyətə düşməsi gözlənilir. Bütün bunlar isə nəticə etibarı ilə Qarabağ münaqişəsinin gedişinə də ciddi təsir edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Suriyada katolik erməni pastorların qətlində klassik erməni terror izləri...

**Ermənistan Xarici İşlər Nazirliyi Suriyanın şimal-şərqində yerləşən Deyr-ez-Zorda baş verən terror (?) hadisəsi ilə bağlı bəyanatla çıxış edib. Erməni diplomatiyası həmin hadisəni pisləyir və Kamışlı kilsəsində iki erməni dindarın öldürülməsi, birinin isə yaralanmasından dərin narahatlıq keçirdiyini bildirir.**



Bəyanatda konkret fakta əsaslanmayaraq qeyd edilir ki, bu "terror" hadisəsini İŞİD qruplaşması üzərinə götürüb.

Ermənistan XİN-i bildirir ki, rəsmi İrəvanın Suriyada göstərdiyi humanitar yardımla erməni əsilli dindarlara qarşı törədilən terror hadisəsi heç bir vəchlə üst-üstə düşmür.

Bu məsələdə əsl klassik erməni terror izi sezilir. Çünki tarix boyu erməni terror təşkilatları tərəfindən analoji hadisələr çox törədilib. Məqsəd də erməniləri məzlum, əzilən xalq kimi təqdim etmək olub. Suriyada İŞİD-in vəziyyəti heç də yaxşı deyil. Hətta bu günlərdə ABŞ-ın İŞİD-in lideri Bağdadinin öldürülməsinə dair məlumatı yayması bu terror qruplaşmasının tam dalana dirəndiyi anlamına gələ bilər. Belə olan təqdirdə erməni keşişlərinin öldürülməsini İŞİD-lə əlaqələndirmək nə dərəcədə məntiqli sayıla bilər?

### *Tural İrfan: "Mən tam əminəm ki, həmin hadisəni ermənilər törədib"*

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu "məharətinin" obyektiv səbəbləri var: "Bilirsiniz ki, son zamanlar türkdilli dövlətlərin inteqrasiyası istiqamətində ciddi işlər aparılır. Bakıda keçirilən sonuncu Zirvə toplantısı da bu qəbildən sayıla bilər. Təbii ki, bütün bunlar erməniləri və onların arxasında duran gücləri narahat edir. Mən tam əminəm ki, həmin hadisəni ermənilər törədiblər. Burada erməniləri himayə edən Rusiyanın da barmağı ola bilər. Bunun bir erməni oyunu olduğu elə Ermənistan XİN-in bəyanatının məzmunundan da aydın görünür. Çünki İŞİD belə bir addımları atan olsaydı, orada ermənilərdən də başqa qeyri-müsəlman icmalar var, elə onların da dini liderlərini öldürərdi.

### *"Burada erməniləri himayə edən Rusiyanın da barmağı ola bilər"*

Hətta İŞİD-in ən güclü vaxtlarında belə biz belə hadisələrlə rastlaşmamışıq. Bəyanatın sonunda Ermənistanın Suriyadakı humanitar missiyada yaxından iştirak etdiyi vurğulanır. Bilirsiniz ki, orada da ermənilər bütün addımlarını ruslarla birgə atırlar. Bu məsələdə əsas hədəf kimi Türkiyə götürülüb. Bir azdan deyəcəklər ki, Türkiyə ilə İŞİD əlbir olub bu addımı atıb. Digər hədəf isə İŞİD-in arxasında duran güclər ola bilər. Bu xüsusda ABŞ və İsrailin adları xüsusi çəkilir. Bununla Rusiya göstərmək istəyir ki, sizin adamlar hətta ən dəhşətli vəhşiliklər edirlər. Yəni versiyalar çoxdur. Biz təhlil edərkən müxtəlif fikirlər səsləndirə bilərik. Ancaq rəsmi qurum gərək konkret faktlara əsaslansın. Ermənistan XİN-in bəyanatında deyilir ki, müxtəlif mənbələr iddia edir. Dövlət adından belə bəyanat verilə bilməz. Keşişlərin öldürülməsi hadisəsi sanki ermənilərin ürəyincə olub. Elə buradan da o nəticə çıxır ki, burada ya ermənilərin özlərinin, ya da onları himayə edən güclərin əli var.

**Prosesləri izləyin, görərsiniz ki, həmin hadisə hələ çox gündəmdə saxlanacaq. Yaxın Şərq hər zaman erməni terror təşkilatlarının oylağı olub. Onlar hansısa məkrli planlarını həyata keçirmək məqsədilə çox asanlıqla keşişlərini özləri öldürə bilərlər".**

*Məhəmmədəli QƏRİBLİ*

# Ərdoğan ABŞ-ın Qüds qərarına görə İƏT-i fövqəladə toplamışdı, "genosid" qərarına görə İƏT-in səsi çıxmadı...

**Məlum olduğu kimi, ABŞ Nümayəndələr Palatası qondarma "erməni soyqırımı" haqqında qətnamə qəbul edib. Sözügedən qərar tamamilə ədalətsiz və qərəzlidir. Çünki bu qərarın heç bir hüquqi və tarixi əsası yoxdur. ABŞ Konqresinin Nümayəndələr Palatasının bu qətnaməsi açıq siyasi xarakter daşıyır və qardaş Türkiyəyə siyasi təzyiq məqsədilə qəbul edilib.**



ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qərarı təkcə Türkiyəyə qarşı yönələn bir qərar deyil. Bu, bütövlükdə, bütün İslam və Türk dünyasına qarşı yönələn bir qərardır. İslam ölkələrinin mənafeyinə toxunan bir qərardır. Ona görə də İslam dövlətləri birlikdə buna etirazlarını bildirməlidirlər. Azərbaycan həmişə Türkiyənin yanında olduğu üçün, buna öz rəsmi etirazını bildirib. Ancaq, nədənsə, digər müsəlman dövlətlərinin timsalında biz bunu görmürük. Hansısa aktivlik bununla bağlı nəzərə çarpmır.

Müqayisə üçün qeyd edək ki, 2017-ci ildə ABŞ Prezidenti Donald Tramp Qüdsün İsrailin paytaxtı kimi tanınması ilə bağlı qərar verdi. Buna etiraz əlaməti olaraq Türkiyə Prezidenti

### *Elman Nəsirov: "Fikrimcə, hələlik Türkiyə İƏT-in belə bir təşəbbüslə çıxış etməsinə lüzum görmür"*

Rəcab Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda İslam Əməkdaşlıq Təşkilatının fövqəladə Zirvə toplantısı keçirildi. İƏT ölkələri yekdilliklə ABŞ-ın qərarını pislədilər. Ancaq Nümayəndələr Palatasının saxta genosidlə bağlı qərarından sonra İƏT-in timsalında buna hansısa etiraz, fövqəladə toplantının çağırılması baş vermədi.

Maraqlıdır, bu cür passivlik nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirov bunu bir sıra amillərlə əlaqələndirdi. Onun fikrincə, Nümayəndələr Palatasının məlum qərarı qondarma "erməni genosidi"nin ABŞ tərəfindən rəsmən tanınması demək deyil: "Konqresin

### *"Qondarma "soyqırım" qətnaməsi Senatda da təsdiqlənərsə, o zaman..."*

məlum qərarı siyasi olmaqla yanaşı, bir siyasi sifarişdir. Ancaq bu qərarın qüvvəyə minməsi üçün Senat onu təsdiq etməlidir. Senatda təsdiqin tapsa belə, yenə yetərli deyil. Ona görə ki, ABŞ Prezidenti qətnaməni təsdiq etməlidir. Yəni qarşıda iki ciddi instansiya var. Türkiyə NATO-da ABŞ-la ciddi müttəfiq olduğuna görə çox güman ki, sözügedən bədnam qətnamə həmin instansiyalardan keçməyəcək. Birləşmiş Ştatlardakı türk lobbisi və diasporu bu yöndə fəal iş aparır. Görünür, indiki vəziyyətdə Türkiyə İƏT-in bununla bağlı xüsusi toplantı keçirməsini məqsədəuyğun hesab etmir. Çünki Nümayəndələr Palatasının məlum qərarı, qeyd olunduğu kimi, qüvvəyə minməyib. Fikrimcə, bu səbəbdən İƏT bir qədər gözləmə mövqeyindədir. Hesab edirəm ki, bu yöndə proseslər mürəkkəb ssenari üzrə inkişaf etsə, qondarma "soyqırım"ın Senatda təsdiqi aktuallaşarsa, o zaman İƏT müvafiq addımlar ata bilər.

Bununla bağlı təşkilatın xüsusi toplantısı çağırıla bilər. Fikrimcə, hələlik Türkiyə İƏT-in belə bir təşəbbüslə çıxış etməsinə lüzum görmür. Hər şey hadisələrin bundan sonrakı inkişafından asılı olacaq.

**Qondarma "soyqırım" qətnaməsi Senatda da təsdiqlənərsə, o zaman ABŞ Prezidentinin mövqeyinə təsir etmək üçün İƏT xüsusi fövqəladə toplantı keçirə bilər. Zənnimcə, belə bir toplantının keçirilməsi istisna deyil. Hesab edirəm ki, indiki məqamda hələlik buna zərurət yoxdur".**

*Vidadi ORDAHALLI*

**Ermənistanda mövcud hakimiyyətin Rusiyaya yarınmaq üçün son dövrlərdə çoxsaylı cəhdlər etməsi heç kimə sirr deyil. Amma faktdır ki, Moskvanın Nikol Paşinyan hakimiyyətindən narazılığı davam edir. Rusiyanın "Qarabağ klanı" ilə hələ də sıx əlaqələrini davam etdirməsi, Paşinyana yönəlik müxtəlif təzyiq alətlərindən faydalanması da qeyd edilənlərin real təsdiqi sayıla bilər.**

# Paşinyanın "ayaqları yerdən üzüldü" - Qərb ondan imtina etdi, Rusiya təzyiqləri artırır, xalq arxasından çəkilib...



Bu durumda Paşinyan üçün qəliz məsələlərdən biri Qərbdən də hansısa dəstək görə bilməməsidir.

Qərbi narazı salan məqam isə İrəvanın münasibətlərin qurulması zamanı Rusiya faktorunu daha çox nəzərə almasıdır. Ermənistanın "İravnuk" qəzeti yazır ki, Paşinyanın bu yanaşmasından Qərb daha çox narazı qalır və İrəvandan üz döndərir. Bu isə Paşinyanı Rusiya qarşısında daha zəif duruma salır. Belə bir vaxtda Paşinyan Qərbi narazı salan daha bir açıqlama verib. O, Avropa İttifaqından məsafə saxlayacaqlarını bildirib: "Gündəliyimizdə Avropa İttifaqına üzv olmaq məsələsi yoxdur". Hökumət başçısı jurnalistin "Ermənistan Avropa İttifaqına üzv olmağa hazırlaşırmı" sualına cavabında deyib: "Mən elə fikirləşmirəm. Biz hazırda Avrasiya İqtisadi İttifaqının üzvüyük. Biz bu təşkilat daxilində əməkdaşlığımızı inkişaf etdirməyə hazırlaşırıq. Bu iqtisadi ittifaq bizim üçün çox vacibdir. Ona görə Avropa İttifaqına üzvlük kimi məsələ bizim gündəliyimizdə yoxdur". Erməni politoloq Sarkis Artsruni bildirir ki, Paşinyanın bu yanaşması təkcə Avropada yox, ABŞ-da da ciddi narazılıq yaradır: "Onsuz da Avropa İttifaqı Ermənistanı sıralarına qoşmağa hazırlaşmır. Amma Paşinyan belə mövqe sərgiləməklə Qərbdən uzaqlaşdığını göstərir və bunun cavab tədbirləri mütləq olacaq.

Ümumiyyətlə, Qərb Ermənistanın hələ də Rusiya orbitində qalmasından, bunun əksi istiqamətində Paşinyanın hansısa ciddi addım atmamasından ciddi narazıdır. ABŞ dövlət katibi Mayk Pompeonun açıqlamaları fonunda bunu qabarıq görmək olar. Mayk Pompeo bildirir: "Moskva Qərbin müttəfiqi hesab edilə bilməz. Bu gün biz azad olmayan ölkələrlə rəqabət aparırıq və siyasətlərini sərtləşdiririk. Buna görə Birləşmiş Ştatlar Almaniyanı və digər Avropa ölkələrini Rusiya ilə enerji sahəsində əməkdaşlığı dərinləşdirməməyə çağırır. Avropanın təchizat baxımından Vladimir Putindən asılı olmasını istəmirik". ABŞ-ın yüksək səviyyəli bir rəsmisi, əslində mövcud Rusiyaya həqiqi bir qiymət verərək, bu ölkənin işğalçı xarakterinə işarə edib. Vaşinqtonun xatırlatmasının əsas qəbuledicisi, əlbəttə ki, Almaniyadır, amma Pompeonun sözlərini ilk növbədə Moskvanın təcavüzkar siyasətinin əsas hədəfləri olan postsovet ölkələri eşitməlidir. Bu cür qiymətləndirmələrdən sonra yaxın gələcəkdə ABŞ, Qərb ölkələri və Rusiya arasında münasibətlərin normallaşacağını gözləmək çətindir və deməli, "soyuq müharibə" davam etmək niyyətindədir və bu, əlbəttə ki, Ermənistanın siyasi sisteminə də problemlər yaradacaq. Robert Köçəryanın bir neçə gün əvvəl qondarma "eksklüziv" məqaləsində yazdığı şey Ermənistandakı rus vassal rejimini əbədiləşdirmək çağırışından və inqilabın nəticələrini ləğv etmək üçün açıq bir cəhddən başqa bir şey deyildi. Zehni baxımdan, Putinin erməni müttəfiqləri forpost statusu müqabilində Ermənistanın suverenliyini qurban verməyə hazır olan keçmiş sistemin rəhbərləridir. Moskvanın ümumi nüfuza, Robert Köçəryan və Serj Sarkisyan kimi liderlərin timsalında talançılara ehtiyacı var. Bu nöqtədə, bugünkü Rusiya elitası və erməni cinayətkar oliqarxiyası təbii müttəfiqlər, əvəzolunmaz tərəfdaşlardır, hər ikisinin fəaliyyət hədəfi də Ermənistanın suverenliyi və vətəndaşlarının azadlığına qarşı yönəlib. Bu təhlükəli kurs hakimiyyət dəyişikliyi yolu ilə dayandırıldı, lakin tarixi dönüş hələ Ermənistanın xarici siyasətinə yeni bir təkan verməyib, bunun nəticəsində Ermənistan-Rusiya münasibətləri hələ də vassal rejimindən azad olunmayıb. Bax, bu da Qərbi bizdən narazı salır. Artıq Qərb əvvəlki yardımı da göstərmək niyyətində deyil".

"Aykakan Jamanak" nəşri yazır ki, bu fonda ABŞ səfiri Lin Treysinin son zamanlar Ermənistanda Paşinyana müxalif qüvvələrlə intensivləşən görüşü təsadüf deyil. Belə ki, səfir parlamentdənkənar siyasi qüvvələrdən olan "Azad Demokratlar", Respublika və "Daşnaksütyun" partiyaları ilə görüşlər keçirib. Partiyalardan alınmış məlumatlardan aydın olur ki, görüşlər səfirin təşəbbüsü ilə baş tutub, Ermənistanın daxili-siyasi və iqtisadi problemləri ətrafında müzakirələr aparılıb. Səfirin görüşlərində mövcud mesajlarla bağlı açıqlama verən politoloq Manvel Sarkisyan qeyd edib ki, "Azad Demokratlar" qərbyönümlü qüvvədir və ABŞ nümayəndələri ilə mütəmadi olaraq görüşür, Respublika və "Daşnaksütyun" partiyaları isə keçmiş hakim koalisiyanın qüvvələridir: "Qərb ölkələri daim çalışır, hər kəslə işləyir. İndi sadəcə hakimiyyətdən uzaqlaşmış qüvvələri seçib: indi "Çiçəklənən Ermənistan" partiyası da uzaqlaşmış olsaydı, bəlkə onlarla da görüşərdilər. Belə vəziyyət Qərbin artıq Paşinyana müxalif qüvvələrlə işbirliyi qurduğunu göstərir. Bu isə Paşinyan üçün açıq mesajdır ki, Qərb onu istəmir". Erməni politoloq Stepan Danielyan da eyni mövqedədir. Onun sözlərinə görə, baş verənlər hökumətin dəyişməsi üçün əlverişli şərait yarada bilər. O xatırladır ki, "küçə uşağı" olan Nikol ölkənin inkişafı ilə bağlı real anlayışlar olmadan populist şüarlarla baş nazir oldu: "Baş verənlərin bütün reallığı budur. Bəs bütün bunların davamı nə olacaq, necə olacaq, bu qeyri-müəyyən olaraq qalır. Aydındır ki, "anti" şüarlardan başqa, Paşinyan xalqı bir-birindən ayıran yox, birləşdirən şüarlar səsləndirməkdə, təbliğ etməkdə, irəli çəkməkdə acizdir. "Küçə uşağı" yeni bir siyasətin şüarlarına çevrilə biləcək, istiqamətləndirici rəhbər şüarları bilmir. Qarşılıqlı nifrət təbliği, parçalanma, həbs və günahkarlar, qanun pozuntuları hakimiyyəti saxlamaq üçün onun yeganə seçimidir. Xalqın mənfi instinktləri yeni hökumətin ən etibarlı müttəfiqləridir. Həmin "alətlər" tükənir, amma onun başqa çarəsi, seçimi yoxdur. Nifrət dolu təbliğata bir nifrət təbliği ilə cavab vermək isə özünümüdafiənin ən yaxşı yolu deyil. Bu, "küçə uşağı"nın ümid etdiyi şeydir. Belə vəziyyətdə Qərbin də mövcud hakimiyyətdən üz döndərməsi onun rəqiblərinə güc verir. Bu isə yaxın tezlikdə Ermənistanda yeni hakimiyyət dəyişikliyini istisna etmir". Bütün bunlar yaxın günlərdə Ermənistanda yeni daxili gərginlin baş qaldıracağını da deməyə əsas verir.

***Nahid SALAYEV***

**Maliyyə vəsaitlərinin cəlb edilməsində bu gün ən çox istifadə olunan vasitələrdən biri istiqraz buraxılışlarının həyata keçirilməsidir. Son dövrlərə qədər bu xüsusda ən çox istifadə edilən alətlərdən biri dollarla istiqrazların, qiymətli kağızların buraxılışı olub. Amma ABŞ-ın iqtisadi siyasəti fonunda dollarla edilən buraxılışların həcmində artıq ciddi azalmalar qeydə alınır.**

# Manata artan inam onu regional valyutaya çevirir...

Əvəzində, avro və digər valyutalarda istiqraz buraxılışlarının həcmi durmadan artır.

Hesablamalar göstərir ki, bu ilin əvvəlindən dünyada avro ilə buraxılan dövlət istiqrazları hesabına 51,2 milyard avro vəsait cəlb edilib ki, bu da 2016-cı ildən bəri rekord həddir. Həmin il avro istiqrazları ilə 39,9 milyard avro borc alınmışdı. "Bloomberg" agentliyi bildirir ki, bu ilin əvvəlindən avro ilə istiqraz tədarükü 80% artıb. ABŞ dolları üzrə artım isə cəmi 3%-dir. Qarşıdakı dövr ərzində vəziyyətin avro və digər valyutaların lehinə daha böyük sürətlə dəyişməsi gözlənilir. Yaranmış vəziyyət Azərbaycana da təsirsiz ötüşmür. Ölkədə bu durumda manatla buraxılan istiqrazların həcmi artır. Belə ki, cari ilin yanvar-sentyabr aylarında Maliyyə Bazarlarına Nəzarət Palatası ümumi dəyəri 12 milyard 835 milyon manat olan 152 yeni qiymətli kağızı dövlət qeydiyyatına alıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,6% və 7,8% çoxdur. Hesabat dövründə qeydiyyata alınmış korporativ istiqrazların sayı isə 19 olub. Bunun 4-ü kredit, 15-i isə digər təşkilatlara məxsus olub.

Amma manat istiqrazları təkcə daxili bazarla məhdudlaşmır. İndi beynəlxalq miqyasda tanınmış maliyyə qurumlarının da manat istiqazları artır. Hətta bu arada bəlli olub ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) gələn il ikinci dəfə manat istiqrazları buraxmaqla bağlı məsələni araşdırır. QDTİB-nin prezidenti Dmitri Pankin Azərbaycanda qiymətli kağızlar bazarının davamlı inkişafını dəstəkləmək, yerli bazarın, o cümlədən kiçik sahibkarların manat ehtiyaclarını çevik ödəmək niyyətində olduqlarını açıqlayıb: "Milli valyutada maliyyələşdirməyin konkret ehtiyacından asılı olaraq 2020-ci ildə ikinci istiqraz tranşı buraxmaq imkanlarını müzakirə edirik". Xatırladaq ki, cari ilin avqustunda QDTİB 10 milyon manat məbləğində, hərəsi 1000 manat dəyərində 10 min istiqraz buraxaraq Bakı Fond Birjasında yerləşdirib. Sərmayədarlar tərəfindən isə bütövlükdə 81 milyon manat məbləğində 63 ərizə verilib, yəni tələb təklifi 8 qat üstələyib. Tədavül müddəti 730 gün olan istiqrazlar illik 9,25 faiz gəlir gətirib, sahiblərinə faiz ödəmələri hər rüb həyata keçirilir. İstiqrazların xitam verilmə günü 31 iyul 2021-ci il tarixidir.

Qeyd edək ki, QDTİB Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələri - Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukrayna, Yunanıstan tərəfindən yaradılan beynəlxalq maliyyə kredit təsisatıdır. Nizamnamə kapitalı 3,45 milyard avro olan QDTİB-də Azərbaycan öz payını 2008-ci ildə 2 faizdən 5 faizədək artırıb. Qurumun manat istiqrazlarının buraxılışını həyata keçirməsi isə ilk növbədə Azərbaycan valyutasının etibarlılıq dərəcəsinin yüksək olmasının təzahürü sayılır.

Xatırladaq ki, manatla istiqraz məsələsi təkcə adıçəkilən bankın maraq dairəsində deyil. Artıq digər nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən yerli bazarda istiqraz buraxılışlarının həyata keçirilməsi nəzərdə tutulur. Yayılan məlumatlardan belə bəlli olur ki, artıq Asiya İnkişaf Bankı Azərbaycan manatı ilə ilk istiqrazlarını 2020-ci ildə tədavülə buraxa bilər. İndilikdə isə bu qurum tərəfindən manat istiqrazlarının buraxılması borcalanların seçiminə görə yubanır. Belə ki, bu seçim zamanı başlıca meyarlardan biri beynəlxalq maliyyə hesabatları standartlarına uyğun həyata keçirilən auditor rəyinin mövcudluğu sayılır.

Gözlənir ki, Asiya İnkişaf Bankı mövcud tələblərə uyğun gələn məqbul sayda borcalanın seçilməsindən sonra 50 milyon manat məbləğində istiqraz buraxılışı həyata keçirilsin. Həmin vəsaitin də məhdud sayda bankların və qeyri-bank kredit təşkilatlarının maliyyə dəstəyinə sərf olunacağı güman edilir. Mikromaliyyə təşkilatları da həmin vəsaitləri təkrar kredit vasitəsilə əldə edə biləcək. Qeyd edək ki, Asiya İnkişaf Bankı postsovet regionunda milli valyutalarda istiqraz buraxmaq təcrübəsinə malikdir. Azərbaycanda isə, əslində, Asiya İnkişaf Bankının istiqrazlarına tələbin böyük olması gözlənir. Ən azı o baxımdan ki, ortada Qara Dəniz Ticarət və İnkişaf Bankının təcrübəsi var. Yuxarıda qeyd olunduğu kimi, bu bankın rəqabətli hərrac üsulu ilə yerləşdirilmiş istiqrazlarına tələb təklifi 8 dəfə üstələyib. Eyni prosesin Asiya İnkişaf Bankının istiqrazlarında da qeydə alınması gözlənir. Elə bu durum da, öz növbəsində, manat istiqrazlarına tələbin bundan sonra yüksələcəyini deməyə əsas verir. Belə vəziyyət isə manatın valyuta olaraq artıq dünya miqyasında da nüfuzunun yüksəlməsinə şərait yaradır. Ekspertlər də hesab edir ki, manat istiqrazları ilə buraxılış beynəlxalq müstəvidə həyata keçirilən uzunmüddətli strategiya, əməkdaşlıq nəticəsində əldə olunmuş mühüm nailiyyətdir. Beynəlxalq maliyyə institutları tərəfindən yerli bazarda buraxılan istiqrazlar isə ölkədə sahibkarlığın inkişafına da mühüm dəstək sayılır. Eyni zamanda, proseslərin gedişi Azərbaycan maliyyə sektorunda daha dayanıqlı bir vəziyyətin formalaşmasını şərtləndirir. Hesab olunur ki, bu durumda manatın xarici ticarətdə tətbiq ehtimalı da əhəmiyyətli dərəcədə yüksəlir. Bu isə manata artan inam sayəsində onun tədricən regional valyutaya çevrilə biləcəyini də istisna etmir.



***Tahir TAĞIYEV***

# Sahibkarlarla nadürüst davranışlara görə icra başçılarından "vurulanlar olacaq"...

**Azərbaycanda həyata keçirilən iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişafıdır. Bu gün dövlət başçısının "ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, həmin sahəyə xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir.**



## Natiq Cəfərli: "...öz qazancını güdərsə, o şəxs dərhal məsuliyyətə cəlb edilməlidir"

Bunun nəticəsidir ki, son 15 ildə ölkəmizdə fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artıb. İndiyədək 35 mindən çox sahibkara 2,5 milyard manatadək güzəştli kredit verilib.

Sahibkarlığın inkişafı üçün dövlət tərəfindən mühüm işlər görülür. Dünya ölkələrinin qabaqcıl təcrübəsi öyrənilir, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində çoxlu sayda iş görülməkdədir. Sahibkarlığın inkişafı üçün dövlət tərəfindən lazımi dəstək göstərilsə də, təəssüf ki, bəzi məmurlar bizneslə məşğul olanlara mane olurlar.

Dəfələrlə Prezident İlham Əliyev sahibkarlıqla məşğul olmaq istəyənlərə lazımi dəstəyin göstərilməsi üçün aidiyyəti qurumlara çağırışlar edib. Lakin hələ də bu sahədə müəyyən problemlər yaşanır.

Bir neçə gün öncə Prezident İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edərkən sahibkarlıqla məşğul olanlara diqqət göstərilməsinin vacibliyi haqqında fikir səsləndirib. Prezident qeyd edib ki, sahibkarlara diqqət göstərilməli, onlar incidilməməlidir: "Əgər hansısa sahibkar vəsait qoymaq, hansısa iş görmək istəyirsə, birinci olaraq siz ona dəstək verməlisiniz. Bəzi hallarda sahibkarlara qarşı ədalətsizlik edilir və onlardan nəsə əldə etmək cəhdləri göstərilir. Buna qətiyyən yol verməmək olmaz. Sahibkarlara da deyirəm ki, əgər belə xoşagəlməz halla üzləşsələr, dərhal bizə məlumat versinlər".

Qeyd edək ki, son zamanlar Prezident İlham Əliyev yeni təyin olunan icra başçılarını qəbul edərkən sahibkarlıqla məşğul olanlara mane olan, onlara çətinlik yaradanların sərt şəkildə cəzalandırılacağını açıq şəkildə bəyan edib.

### "Azərbaycanda iqtisadi islahatların dərinləşməsi üçün məhkəmə islahatları vacibdir"

Sahibkarlıqla məşğul olanlara maneçilik törədənlər necə cəzalandırılacaq?

İqtisadçı-ekspert Natiq Cəfərli bizimlə söhbətində qeyd etdi ki, bizneslə məşğul olanlara və ya olmaq istəyənlərə çətinlik yaradanlarla bağlı məsələ ilk növbədə ictimailəşdirilməlidir: "Bu məsələdə zərərçəkən sahibkarlarla yanaşı, vətəndaşların da üzərinə böyük yük düşür. O insanlar qorxmadan, çəkinmədən bizneslə məşğul olmaq istəyənləri incidənləri, onların başlarına gələn hadisələri ictimailəşdirməlidirlər. İstər sosial şəbəkə vasitəsilə, istərsə də mətbuata çıxmaqla sahibkarlara necə maneçilik törədildiyini ictimailəşdirə bilərlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, məhkəmə islahatları həyata keçirilməlidir. Ədalətsizliklə üzləşən hər bir şəxs məhkəməyə müraciət edə bilər: "Məhkəmələr tapşırıqla deyil, ədalətli qərar verməlidirlər. Azərbaycanda iqtisadi islahatların dərinləşməsi və həyata keçirilməsi üçün məhkəmə islahatları vacibdir. Ədalətli məhkəmə qərarları olarsa, iqtisadiyyatda atılan addımlar müsbət effekt verə bilər. Sahibkarlıqla məşğul olanlara istənilən formada çətinlik törədənlərlə bağlı həm ictimai qınaq, həm də hüquqi məsuliyyət tətbiq olunarsa, Azərbaycanda biznes mühiti inkişaf edər".

İqtisadçının sözlərinə görə, bizneslə məşğul olanlardan nəsə əldə etmək istəyənlər az deyil. Artıq dövr dəyişib. Prezidentin sərt çıxışları və icra başçılarına tapşırıqlarından sonra vəziyyət dəyişəcək. Hansısa məmur və ya icra başçısı sahibkarlığın inkişafına mane olarsa, öz qazancını güdərsə, o şəxs dərhal məsuliyyətə cəlb edilməlidir.

***Günel CƏLİLOVA***

# 723 manat orta aylıq əməkhaqqı - başqa ölkələrlə Azərbaycanın müqayisəsi nələri göstərir...

**Məlumdur ki, Prezident İlham Əliyev iqtisadi inkişaf, neft və qaz sektorundan əldə olunan vəsaitlər və islahatlar nəticəsində artan büdcə gəlirləri hesabına ərsəyə gələn növbəti sosial paket ilə 2 milyondan çox insanın əməkhaqqını artırıb. Bəllidir ki, dövlət başçısı bu gəlirləri yenə xalqın rifahına yönəltdi.**



## Pərviz Heydərov: "Azərbaycan MDB məkanında maaş artımına görə 2-ci yeri tutur"

Təbii olaraq əhalinin gəlirlərinin artması alıcılıq qabiliyyətinin artmasına müsbət təsir edəcək.

Məlumdur ki, cari il ərzində həm minimum əməkhaqqı, həm də orta əməkhaqqının məbləği artırıldı. Danılmaz faktdır ki, əməkhaqqının artırılması əhalinin sosial rifahının inkişaf etməsinə səbəb olub.

Bu günlərdə Prezident İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edərkən əməkhaqqının gələcəkdə daha da artacağını bildirib. Prezident qeyd edib ki, orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir: "Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. İlk növbədə, ona görə ki, həm maaşlar artacaq, eyni zamanda, biz kölgə iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini kölgədən çıxarıb və onları rəsmiləşdirə bilmişik və bu proses davam edəcək. Biz hələ işin başlanğıc mərhələsindəyik".

Onu da qeyd edək ki, bir çox beynəlxalq hesabatda Azərbaycan istər minimum əməkhaqqı, istərsə də orta aylıq əməkhaqqının səviyyəsinə görə ön sıralarda qərarlaşıb.

MDB ölkələri ilə müqayisədə Azərbaycanda orta aylıq əməkhaqqının məbləği yüksəkdir. Belə ki, Ermənistanda orta aylıq əməkhaqqı 356,1, Qırğızıstanda 232,7, Ukraynada 328, Tacikistanda 129 dollardır. Ancaq Azərbaycanda isə 425 dollardır (423 manatdır).

Hazırda ölkədə orta əməkhaqqı 723 manatdır. MDB ölkələri ilə müqayisədə Azərbaycanda orta əməkhaqqı hansı səviyyədədir?

### "Əməkhaqlarının əhəmiyyətli artımı sayəsində iqtisadi aktivlik də artır"

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, cari il ərzində iki dəfə böyükmiqyaslı sosial paket həyata keçirildi. Orta aylıq əməkhaqqının artım tempi qənaətbəxşdir. Bu artım beynəlxalq təşkilatların da hesabatlarında, o cümlədən, MDB ölkələri ilə müqayisədə öncül yerlərdə qərarlaşdı: "Onu da bildirim ki, pensiya məbləğinə görə Azərbaycan MDB ölkələri ilə müqayisədə birinci oldu. Eyni zamanda, orta aylıq əməkhaqqının səviyyəsinə görə də Azərbaycan xarici ölkələrlə müqayisədə də ön sıradadır. Yaxın illər ərzində orta aylıq əməkhaqqı məbləğinin daha da artacağı gözlənir. Əməkhaqqı məbləğinin daha da artmasına görə MDB ölkələrini daha da qabaqlayacağıq".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycan MDB məkanında maaş artımına görə 2-ci yeri tutur: "Hesab edirəm ki, bu çox yaxşı göstəricidir. Əməkhaqlarının əhəmiyyətli artımı sayəsində əhalinin alıcılıq qabiliyyətinin artması ilə yanaşı, iqtisadi aktivlik də artır. Minimum aylıq əməkhaqqının artması orta aylıq maaşın artmasına təsir edir. Bu da ölkə iqtisadiyyatında inkişafı, əhalinin rifahını təmin edir. Bəllidir ki, minimum aylıq əməkhaqqı qalxanda digər əməkhaqları, minimum pensiyalar və digər pensiya növləri də qalxacaq. Əməkhaqlarının artırılması, istənilən halda, ölkə üçün şərəf gətirir. Bu o deməkdir ki, insanların həyat səviyyəsi yüksəlir, sosial məsələlər qabağa çəkilir. İnsanlarda stimul yaranır, alıcılıq qabiliyyəti artır. Ona görə də bütün bu artımları yüksək qiymətləndirirəm".

***Günel CƏLİLOVA***

**Uzun illərdən bəri Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) ciddi struktur islahatları aparılacağı gözlənilirdi. Günün çağırışlarına cavab verməyən bir sıra elmi-tədqiqat institutlarının, şöbə və qurumların bağlanacağı, yaxud birləşdiriləcəyi haqqında fikirlər bildirilirdi.**

# AMEA-da strukturların ləğvi, yenidən qurulması başlandı...

## *İsa Həbibbəyli: "AMEA-da aparılacaq köklü islahatlar barədə akademik Ramiz Mehdiyevin fikirləri var"*



Bir sıra ekspertlər hesab edirlər ki, AMEA-da genişmiqyaslı struktur islahatları aparılmasına ciddi ehtiyac var.

Akademik Ramiz Mehdiyev AMEA prezidenti seçildikdən sonra artıq gözlənilən islahatlara start verilməyə başlayıb. Qeyd edək ki, AMEA prezidenti, akademik Ramiz Mehdiyevin imzaladığı sərəncamla Rəyasət Heyəti aparatının Mətbuat və informasiya idarəsi ləğv olunub. Onun yerinə İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi yaradılıb. Eyni zamanda, Mətbuat və informasiya idarəsinin tabeliyində olan şöbələr də ləğv olunaraq onların yerinə sektor yaradılıb.

Məlumata görə, struktur islahatları bundan sonra da davam edəcək və AMEA-nın Rəyasət Heyətinin aparatının digər idarələri ləğv olunaraq şöbə, şöbələrin isə ləğv olunaraq sektor yaradılması gözlənir.

AMEA-da islahatlar daha hansı sahələri əhatə edəcək?

Azərbaycan Milli Elmlər Akademiyasının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, AMEA-da artıq qurumların ləğv olunması, bəzi müəssisələrdəki şişirdilmiş ştatların olması, ehtiyac duyulmayan mütəxəssislərin çoxluğu nəzərdən keçiriləcək. İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov bizimlə söhbətində bildirdi ki, AMEA prezidenti akademik Ramiz Mehdiyev bu qurumda aparılacaq islahatlarla bağlı öz fikir və mövqeyini Rəyasət Heyətinin yaxın günlərdə keçiriləcək iclasında açıqlayacaq.

*"Mətbuat və informasiya idarəsinin İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinə çevrilməsi..."*

İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsindən redaksiyamıza Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin akademiyada aparılacaq islahatlar barədə fikirləri təqdim edilib. İ.Həbibbəyli bu istiqamətdə AMEA-nın rəsmi mövqeyini açıqlayıb. "AMEA-da aparılacaq köklü islahatlar barədə akademik Ramiz Mehdiyevin fikirləri var. Onun öz fikirlərini akademiyanın elmi ictimaiyyəti qarşısında açıqlayacağını gözləyirik. Akademik Ramiz Mehdiyev uzun illər daşıdığı yüksək vəzifədə olarkən də AMEA-nın fəaliyyətinə nəzarət edib. O, akademiyada gedən proseslərə dərindən bələddir. İndi də təyin olunduğu gündən akademiyadakı prosesləri araşdırır. Hesab edirəm ki, akademik Ramiz Mehdiyevin AMEA prezidenti təyin olunması Azərbaycan Prezidenti İlham Əliyevin qurumun mövqeyinin möhkəmlənməsi, onun daha da inkişaf etdirilərək yeni mərhələyə çatdırılması istiqamətində atdığı addım kimi mühüm əhəmiyyətə malikdir. Konkret olaraq, Mətbuat və informasiya idarəsinin İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinə çevrilməsi, şübhəsiz ki, akademiyada aparılacaq struktur islahatları və optimallaşdırma siyasəti ilə əlaqədardır" - deyə İ.Həbibbəyli qeyd edib.

*İradə SARIYEVA*

---

**Qazaxıstanda taxıl, un və çörəyin qiyməti qalxıb. Bu ölkədə sözügedən məhsulların qiymətinin 10 faiz bahalaşdığı bildirilir. Qazaxıstanda un və un məmulatlarının noyabrın əvvəllərindən etibarən kəskin bahalaşması bu ölkədən taxıl alan ölkələrdə də ciddi narahatlıqla qarşılanır.**

# Qazaxıstanda unun bahalaşmasının Azərbaycana satılan taxılın qiymətinə təsiri...

## *Qadir Bayramlı: "Qazaxıstandan buğda yeni müqavilə əsasında alınacaqsa, bu, müəyyən qədər, Azərbaycandakı qiymətlərə də təsir edə bilər"*



Bu ölkədə unun və un məmulatlarının bahalaşacağı haqqında ölkə rəsmiləri məlumat vermişdi. Onlar bahalaşmanın səbəbini bu il əlverişsiz hava şəraitinə görə məhsulun az olması ilə əlaqələndirirlər.

Məlumatlara görə, Qazaxıstan ötən ilkinə nisbətən 1.5 milyon ton az buğda yığıb. Qeyd edək ki, Qazaxıstan Türkiyə, Gürcüstan, İtaliya, İspaniya, Azərbaycan, Əfqanıstan və İrana buğda satır.

Məlum olduğu kimi, Azərbaycan ərzaq buğdasını əsasən Qazaxıstan və Rusiyadan idxal edir. Bu baxımdan qonşu ölkədəki bahalaşmanın Azərbaycana da müəyyən təsiri ola bilər.

Qazaxıstanda taxılın bahalaşması bu ölkədən taxıl alan Azərbaycanda həmin məhsulların qiymətinə təsir edə bilərmi?

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə mətbuata açıqlamasında bildirib ki, Qazaxıstandakı qiymət dəyişikliyi daxili bazarda cərəyan edir. Bunun dünya bazarına, o cümlədən, Azərbaycana aidiyyəti yoxdur. Onun sözlərinə görə, Azərbaycana idxal olunan buğdanın 70 faizi Rusiyadan gətirilir. Bundan başqa, Azərbaycanda buğda idxalı və istehsalı əlavə dəyər vergisindən azaddır. Ona görə də regionda baş verən proseslərin Azərbaycana heç bir təsiri olmayacaq. Nazirlik rəsmisi buğda istehsalı barədə də məlumat verib. "Azərbaycanda 2.1 milyon tondan çox buğda istehsal edilib. Bu il ehtiyatlarımız adətən 800 min tonla 1.6 milyon tonarası dəyişir. Xüsusilə dövlət olaraq strateji ehtiyatlarımızın - 750 min ehtiyatın yaradılması ilə bağlı qanunvericilik bazası mövcuddur" - deyə o bildirib.

Bir çox ekspert hesab edir ki, ümumilikdə, dünya bazarında, həmçinin, Rusiyanın satdığı buğdanın qiymətində bu ilin aprelindən etibarən ucuzlaşma gedir, bu isə Qazaxıstandakı bahalaşmanın Azərbaycanda da baş verməsi ehtimalını qeyri-real edir.

*"Bizə lazımdır ki, çörəklik unu öz istehsalımız nəticəsində əldə edək, buna imkanlarımız var"*

Tanınmış kənd təsərrüfatı mütəxəssisi Qadir Bayramlı isə hesab edir ki, Qazaxıstanda buğdanın və bu qəbildən olan məhsulların bahalaşmasının Azərbaycana təsiri hiss olunmayacaq. "Qazaxıstanda buğdanın və unun bahalaşmasının Azərbaycanda un məhsullarının bahalaşmasına təsir göstərməsi iki ölkə arasında bu istiqamətdə imzalanan müqavilənin şərtlərindən asılıdır. Bu sahədə qiymətlərin dəyişməsi alqı-satqı müqaviləsinə uyğun olur. Qazaxıstandan buğda yeni müqavilə əsasında alınacaqsa, bu, müəyyən qədər, Azərbaycandakı qiymətlərə də təsir edə bilər.

Azərbaycanda ərzaq və çörək təhlükəsizliyi ən əhəmiyyətli məsələlərdən biridir. Bizim ölkəmizdə təxminən 3 milyon ton taxıl istehsal olunur, onun 700 min tondan çoxu buğdadır. Biz öz buğdamızdan un istehsalında çox az istifadə edirik. Bir vaxtlar respublikanın müxtəlif yerlərində buğda üyüdən dəyirmanlar vardı. Fermerler, buğda yetişdirən insanlar aparıb o buğdanı həmin dəyirmanlarda üyüdüb una çevirə bilirdilər. Sonradan o dəyirmanlar fəaliyyətini dayandırdı. Bizə o dəyirman şəbəkəsini yenidən qurmaq lazımdır. Bizə lazımdır ki, çörəklik unu öz istehsalımız nəticəsində əldə edək, buna imkanlarımız var. Bizə vaxt itirmək olmaz. Çünki ildən-ilə Qazaxıstanda həm taxılın isehsalında, həm də qiymətində dalğalanma artır. Biz bu ölkədən taxıl almaya da bilərik. Biz gücümüzü səfərbər edərək ölkəmizi öz buğdamız hesabına çörəklə təmin etməliyik" - deyə Q.Bayramlı qeyd etdi.

*İradə SARIYEVA*

# Bakıda Asiya İnkişaf Bankının "Texniki dəstək" layihəsinin təqdimetmə mərasimi keçirildi

*Layihə vergi orqanlarının inzibatçılıq potensialının artırılmasına yönəlmiş müxtəlif komponentləri əhatə edir*

**Noyabrın 13-də Bakıdakı "Hilton" hotelində Asiya İnkişaf Bankının "Texniki dəstək" layihəsinin (TA 9799-AZE) təqdimetmə mərasimi keçirilib. Tədbirdəaçılış nitqi ilə çıxış edən Asiya İnkişaf Bankının rezident missiyasının Azərbaycan üzrə direktoru Nəriman Mannapbekov layihə barədə məlumat verib.**

O, bu layihənin Azərbaycan üçün əhəmiyyətini vurğulayaraq, Asiya İnkişaf Bankı ilə müzakirələrdə müəyyən edilmiş istiqamətlər barədə danışıb.

Tədbirdə çıxış edən Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov Asiya İnkişaf Bankı və Koreya Respublikasının Bilik Tərəfdaşlığı Fondu ilə həyata keçirilən "Vergi siyasətivə inzibatçılığı potensialının gücləndirilməsi" adlı layihə barədə söz açıb. Qeyd edilib ki, indiyədək Asiya İnkişaf Bankı Azərbaycan hökuməti ilə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq edib, o cümlədən texniki yardım layihələrini icra edib: "Bununla belə, hazırda açılışını etdiyimiz layihə Asiya İnkişaf Bankı ilə Azərbaycanın vergi orqanı arasında ilk texniki yardım layihəsidir".

Diqqətə çatdırılıb ki, vergi orqanlarının inzibatçılıq potensialının artırılmasına yönəlmiş müxtəlif komponentləri əhatə edən layihənin qarşıdakı 2 il ərzində həyata keçirilməsi nəzərdə tutulub. Texniki yardım aləti əsas etibarilə vergi orqanlarının fəaliyyət istiqamətlərini əhatə etsə də, Azərbaycan Respublikası Maliyyə Nazirliyi də aidiyyəti sahələr üzrə benefisiar qurum qismində çıxış edir.

Bankın faktaraşdırıcı missiyası tərəfindən müasir dövrün çağırışlarına uyğun vergi orqanlarında təkmilləşdirilmə zərurəti olan sahələr üzrə üç mühüm komponent müəyyən edilib. Bunlar insan resursları və fəaliyyətin idarə olunması; vergi ödəyicilərinə xidmət və könüllü əməletmə; habelə əməl etməmə halları ilə səmərəli mübarizə kimi istiqamətləri əhatə edir.

Nazirin birinci müavini deyib ki, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, əmək bazarınınşəffaflaşdırılması və məşğulluğun artırılması, bazarda rəqabət mühitinin təmin edilməsi, leqal biznesin qanuni mənafelərinin qorunması ilə bağlı kompleks siyasətin həyata keçirilməsi, öz növbəsində, bu istiqamətdə vergi inzibatçılığının effektivliyinin yüksəldilməsi tələblərini artırıb. Bu tələblər vergi inzibatçılığının tətbiqi vasitələrinə, rəqəmsal nəzarət sistemlərinə, xidmətlər sektoruna, habelə insan resurslarına istiqamətlənib:"Təsadüfi deyil ki, Asiya



İnkişaf Bankı ilə müzakirələrdə müəyyən edilmiş istiqamətlər məhz bu məsələləri əhatə edir. Layihə çərçivəsində könüllü əməletmə göstəricilərinin yaxşılaşdırılması yolu ilə vergi intizamının yüksəldilməsinə nail olmağı hədəfləyirik. Xidmətlərin və kommunikasiyaların əlçatanlığının, yararlılıq dərəcəsinin artırılması, eləcə də müraciət və şikayətlərə baxılması prosedurlarının təkmilləşdirilməsi diqqət mərkəzində olacaq. "Kölgə iqtisadiyyatı" əleyhinə səylərin gücləndirilməsi, audit metodlarının və kameral yoxlama prosedurlarının təkmilləşdirilməsi, məlumat bazalarımızın, habelə borcların alınması üzrə göstəricilərin yaxşılaşdırılması ilə bağlı məsələləri müzakirə edəcəyik, sahibkarları və vergi orqanlarını məmnun edəcək optimal həll yollarını nəzərdən keçirəcəyik".

Tədbirdə OECD Koreya Siyasət Mərkəzinin direktoru Choi Myungsoo çıxış edərək layihə çərçivəsində əməkdaşlıqla bağlı öz fikirlərini bölüşüb, AİB-nin eksperti Yuji Miyaki isə texniki yardım layihəsinin məqsədləri barədə məlumat verib.

Tədbir öz işini "Dəyişkən vergi mühiti və vergi inzibatçılığının inkişaf prioritetləri", "Qrup fəaliyyəti: "Hansı reallıq?, Nəyə nail olmaq olar?, Hədəfimizə necə nail ola bilərik?" və s. mövzuları əhatə edən sessiyalarda davam etdirib.

# Hansı hallarda işsizlikdən sığorta haqqı almaq olar...




**Vətəndaş işsizlikdən sığorta haqqı almaq üçün öz ərizəsi əsasında işdən çıxmamalıdır. Vətəndaş istəyindən və iradəsindən kənar işsiz qalmalıdır.**

Bu sığortanın ümumi prinsipidir. Trend-in məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev parlamentin keçirilən plenar iclasında deyib. Nazir bildirib ki, vətəndaş əgər ixtisara düşərək və digər şərtlərlə işdən azad olunursa, o müvafiq məşğulluq orqanında qeydiyyata durmaqla işsizlikdən sığorta haqqı ala bilər.

S.Babayevin sözlərinə görə, işsiz qalan şəxsə 6 aylıq işsizlikdən sığorta haqqı təyin olunur: "Bu rəqəm 3 ay da artırıla bilər. Sığorta ödənişinin orta məbləği 300 manatdan yuxarıdır. Əsas problem ondan ibarətdir ki, bir çox hallarda şəxs öz ərizəsi ilə işdən ayrılır, yaxud işsiz statusu almaq üçün məşğulluq mərkəzlərində qeydiyyata düşmür. Bu gün məşğulluq mərkəzlərində cəmi 201 min insan qeydiyyata durub ki, bunun da yalnız 70 mini işsiz şəxs statusundadır. Yerdə qalanı isə işaxtaran şəxs statusundadırlar".Nazir qeyd edib ki, işsizlikdən sığorta ilə bağlı dəyişikliklər növbəti illərdə parlamentə təqdim ediləcək.

# Azərbaycanda tələbə yataqxanalarının tikilməsində "Tik-idarə et-təhvil ver" modeli...



**Azərbaycanda tələbə yataqxanalarının tikilməsi ilə bağlı təklif irəli sürülüb. Trend-in məlumatına görə, Milli Məclisin keçirilən plenar iclasında parlamentin vitse-spikeri Valeh Ələsgərov bununla "Tik-idarə et-təhvil ver" (TİT) modelindən istifadəni məqsədəuyğun hesab edib.**

V.Ələsgərov bildirib ki, bu modellə bağlı 2016-cı ildə Milli Məclis tərəfindən qanun qəbul olunub. Vitse-spiker bildirib ki, dünyanın bir çox ölkələrində bu modeldən səmərəli istifadə olunur, körpülər, tunellər hava limanları tikilir.

Vitse-spikerin sözlərinə görə, Milli Məclis bu qanuna əlavə edərək tələbə kampuslarının tikilməsi üçün qanunvericilik bazası yarada bilər:

"Tələbə yataqxanaları ilə bağlı məsələ bu yolla daha tez həll oluna bilər. Təklif edirəm ki, Təhsil və Maliyyə Nazirlikləri ilə birgə bununla bağlı müəyyən mexanizm hazırlayaq".

Qeyd edək ki, Milli Məclis 2016-cı il martın 4-də keçirilən iclasında "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" yeni qanun layihəsini təsdiq edib. Qanun layihəsində körpü və tunellərin, su anbarlarının, suvarma sistemlərinin, təhsil, səhiyyə, mədəniyyət obyektlərinin, kommersiya məqsədli binaların, sənaye, texnologiya, aqroparkların, xüsusi iqtisadi zonaların və digər infrastrukturların "Tik, idarə et, təhvil ver" modelinə uyğun maliyyələşmə əsasında tikintisinə, idarə edilməsinə və təhvil verilməsinə investisiyanın cəlb olunmasının hüquqi əsaslarını müəyyən edir.

**Qanuna görə, bu tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrini TİT modelinə uyğun həyata keçirən investor həyata keçirdiyi fəaliyyətlə bağlı dövlət rüsumlarından və yığımlardan azaddır.**

№ 201 (4099) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

13 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Kosmonavtlar üçün drondan istifadә etmәyә kömәk edәn "ağıllı әlcәk"...

**Әlcәklә dron әmrini nәzarәt etmәnin çәtin olacağını düşünәn mühәndislәr tәrәfindәn, dronları әlcәyin özüylә nәzarәt etmәyi tәmin edәcәk bir üsul yaradılmışdır.**



Kosmonavtların skafandrın içindә olduğunu hamımız bilirik. Mәlumdur ki, skafandrın içindә ola-ola hәssas cihazlardan istifadә etmәk çәtindir. Bu sәbәblә dә araşdırmaçılar alternativlәr axtarır. NASA vә SETİ araşdırmaçılarının yaratdığı yeni әlcәklәr dә bu işlәrin bir mәhsuludur. "Deyerler.org" bildirir ki, NASA-nın Haughton-Mars layihәsi araşdırmaları üçün istifadә etdiyi Devon Adasında yeni "ağıllı" әlcәklәr tanıdıldı. Bu әlcәklәr, kosmonavtların dron istifadә etmәk kimi hәssas işlәrin asanca edilә bilmәsini tәmin edir. Әlcәklәrdә dron istifadә etmәkdәn başqa işlәr dә tele operatorluq üsuluyla reallaşdırıla bilir. NASA, yaxın zamanda kosmonavtların yeni skafandrlarını tanıdarkәn bildirmişdir ki, hәll etmәyә çalışdıqları çәtinliklәrdәn birinin dә tәzyiqli geyim içәrisindә hәssas barmaq hәrәkәtlәrini qorumaq olub. Artemis missiyasında istifadә edilәcәk bu skafandrların tәzyiqlәri nizamlana bilәn hala gәtirildi. Daha fәrqli bir yanaşma mәnimsәyәn "ağıllı" әlcәk isә, düymәlәrә basmaq yerinә jestlәri vә әl hәrәkәtlәrini istifadә edir. Belәcә, barmaqlardansa, әllәri hәrәkәt etdirәrәk hәssas missiyalar asanlıqla yerinә yetirilә bilәr.

## Dünyanın әn yaşlı cütlüyü seçildi



**Amerikanın Texas ştatında yaşayan 105 yaşlı Şarlotta vә 106 yaşlı Con Henderson dünyanın әn yaşlı cütlüyü olaraq "Ginnesin Rekordlar Kitabı"na düşüblәr.**

"Axşam.az" bildirir ki, 80 illik evli olan әr-arvad bir-birlәrini çox sevdiklәrini dilә gәtiriblәr: "1934-cü ildә tanış olub 5 il sonra evlәnmişik. Bal ayına getmәk üçün sadәcә 7 dollarımız vardı. Birlikdә çalışdıq vә bütün çәtinliklәrin öhdәsindәn gәldik. Uzun illәr evli qalmağın tәk sirri var: hәyat yoldaşınıza qarşı sәmimi olun". Con Teksas Universitetinin әn yaşlı futbolçudur. O, ildә әn az bir dәfә matça qatılır.

## Elan

Mirzәyev Qürbәt Behbud oğlunun adına, Bakı şәhәri, Binәqәdi rayonu, 8-ci mikrorayon, Ş.Mәmmәdova küçәsi, ev 7, mәnzil 158 ünvanına verilmiş çıxarış (qeydiyyat vәsiqәsi) itdiyi üçün etibarsız sayılır.

Azәrbaycan Dövlәt İqtisad Universitetinin I kurs tәlәbәsi İbadova Fatimә Tofiq qızına verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır (AA №0228155).

Bakı Dövlәt Rabitә vә Nәqliyyat Kollecinin II kurs tәlәbәsi Әlizadә Fәqan Elmar oğluna verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır (AA №0720706).

Şamilov Rafiq Әmirxan oğluna Azәrbaycan Respublikası Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş Qarabağ müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır (ASAN №5, AZE №16782979).

## 32 min manat maaşa xidmәtçi axtarılır

**İngiltәrәnin "Windsor" sarayına xidmәtçi axtarılır. "Axşam.az" bildirir ki, tәmizlikçi sarayı tәmiz vә baxımlı saxlamalı, xüsusi dәvәtlәrdә vә tәdbirlәrdә kömәk etmәlidir.**

Bundan әlavә, yeni işçinin kraliça vә hersoqlara kritik vәziyyәtlәrdә üstün xidmәt göstәrmәsi tәlәb edilir. Bu işlәrin qarşılığında isә o, ildә 32 min manat maaş alacaq. Qeyd edәk ki, Kraliça II Elizabet başda olmaqla, Kraliyyәt ailәsinin bir çox üzvü xüsusilә yay aylarını "Windsor" sarayında istirahәt edir.

## "İphone"un texniki sәhvini tapan 17 yaşlı türk gәncә "Apple" şirkәtinin mükafatı...

**Türkiyәdә 17 yaşlı gәnc "İphone"un texniki sәhvini tapıb. Türkiyәnin Bursa şәhәrindә yaşayan 17 yaşlı Oğuz Akçay "Apple" firmasının "Iphone" markalı telefonunda texniki çatışmazlıq müşahidә edib.**

Elektrik vә elektronika ixtisası üzrә liseydә oxuyan O.Akçay tapdığı çatışmazlığı mәktub vasitәsi ilә "Apple" firmasının elektron poçt ünvanına göndәrib. Sözügedәn firma O.Akçaya tәşәkkür edәrәk ona 100TL (tәqribәn 30 AZN) pul göndәrib.

Hadisә ilә bağlı danışan O.Akçay "İphone"da olan problemi aşkarladığını bu cür izah edib: "Telefonla danışarkәn günәş mәnzәrәsini çәkmәk istәdim. Ancaq kameraya girәrkәn telefonun ekranı qaraldı, loqosu göründü, telefon danışığım isә davam edirdi.

Düşündüm ki, telefonumda texniki problem var. Ancaq bir neçә oxşar modeldә yoxladım, vәziyyәt eyni idi. "Apple" şirkәtinә problemlә bağlı elektron mәktub ünvanladım. Onlar cavablarında mәnә tәşәkkür etdilәr vә hesabıma 100 lirә yüklәdilәr.

Belә böyük bir firmanın sәhvini tapmaq mәni çox tәәccüblәndirdi. Tapdığım üçün çox xoşbәxtәm".





**Qoç** - Hәll etmәli olduğunuz mәsәlәlәr sizә maraqlı gәlir vә böyük entuziazmla işә girişirsiniz. Vaxtınızı boşa vermir vә buna görә dә çox şeyә nail olursunuz. Yaradıcı münasibәt, qeyri-standart yanaşma tәlәb edәn yeni layihәlәrә başlamaq olar.



**Buğa** - Mәhsuldar vә maraqlı gündür. İşlәriniz çox olmasa da, yorulmaq bilmirsiniz, planlaşdırdığınız hәr işi görüb qurtara bilәrsiniz. Tezliklә çox nüfuzlu bir adam sizә öz dәstәyini tәklif edәcәk.



**Әkizlәr** - Yalnız entuziazm vә qәtiyyәt sayәsindә uğur qazana bilәrsiniz. Hәtta, şәrait imkan vermәsә belә, siz mәqsәdinizә doğru gedir vә hamının tәәccübünә rәğmәn, ona çatırsınız.



**Xәrçәng** - Layihәlәrinizin uğurlu olacağına şübhә etmәyin - bu gün uğur sizindir. Şәrait әn pis mәcrada dәyişsә dә, hәtta tәrәfdaşlarınız da sizә dәstәk vermәkdәn imtina etsәlәr dә, öz istәdiyinizә çatacaqsınız.



**Şir** - Sakit vә mehriban ünsiyyәt günüdür. Sәrt mәsәlәlәri, fikir ayrılıqları yarada bilәcәk mövzuları müzakirә etmәmәyә çalışın. Bu gün öhdәnizә sülhyaratma missiyası düşür, başqalarının hәyatını asan vә xoş etmәlisiniz.



**Qız** - Qәtiyyәtli vә mәqsәdyönlüsünüz. Bu yaxşıdır. Çünki, qarşınıza qoyduğunuz mәqsәdlәrә çatmaq elә dә asan deyil. Kimsә sizin mәnәvi tarazlığınızı pozmaq, insanların içindә әsib-coşmağınız üçün әlindәn gәlәni edәcәk.



**Tәrәzi** - Әlinizi atdığınız hәr bir işdә uğur qazanırsınız. Mәsәlәlәri düzgün qoymaq bacarığı çox faydalı olacaq - bunları yerinә yetirmәk istәyәnlәr özlәrini çox gözlәtmirlәr. Ağlınıza maraqlı ideyalar, yeni uzunmüddәtli planlar gәlir.



**Әqrәb** - Kölgәdә qalmağa can atmayın: bu gün nә qәdәr çox diqqәt cәlb etsәniz, bir o qәdәr yaxşıdır (özü dә tәk sizin üçün deyil). Nüfuzlu şәxslәrlә danışıqlar aparmaq, investor vә ya hami axtarmaq olar.



**Oxatan** - Yaradıcı iş, qeyri-standart yanaşma tәlәb edәn mәsәlәlәrin hәlli üçün әla gündür. Orijinal ideyaları gerçәklәşdirmәk xoşunuza gәlir, cari işlәr isә sizi yorur, darıxdırır. İşdә mәhәbbәt macәrasının başlanması mümkündür.



**Oğlaq** - Bu gün öz işlәrinizi bir kәnara qoyub, başqalarının maraqlarını müdafiә edәcәk, әtrafınızdakıları sevindirәcәksiniz. Kimsә sizin xeyirxahlığınızdan sui-istifadә etmәyә çalışmayacaq, odur ki, insanlara yardım etmәk hәvәsinizi boğmayın.



**Dolça** - Qeyri-dәqiqliklәr, qarışıqlıq sizi özünüzdәn çıxarır, bütün suallarınıza cavab tapmaq istәyirsiniz. Bu gün bu mümkündür, ancaq diqqәtli olun: aldığınız mәlumat hәrәkәt planı üçün әsas ola bilmәz.



**Balıqlar** - İşgüzar ünsiyyәt, vacib mәsәlәlәrin müzakirәsi üçün әlverişli gündür. Mürәkkәb danışıqlarda özünüzü әsl diplomat kimi hiss edәcәksiniz: aqressivlik, sәrtlik göstәrmәdәn istәyinizә çata bilәrsiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Arağın ölümcül dozası elan edildi



**Dünyada әn çox araq içәn millәtlәr slavyanlardır. Rusiyada adambaşına düşәn arağın ölümcül dozası açıqlanıb.**

Belә ki, insan 1,1 litr araq içәrsә, sәrxoşluğun ekstremal forması baş verә bilәr vә sonluq ölümlә nәticәlәnәr. "Medicina.az" bildirir ki, bәzәn ruslar bayramlarda bir gün әrzindә 1 litr arağı içә bilәr. Avropalılar isә arağı hәftә üzrә bәrabәr miqdara bölәrәk qәbul edir vә normanı aşmır. Rusiya adambaşına ildә 1,1 litr araq içmәk üzrә dünya reytinqindә 5-ci yerdәdir. Lider ölkә isә Litvadır, onlar ildә 12,5 litr spirtli içki qәbul edir. Düzdür, müasir ruslar arağı o qәdәr dә çox içmir, ölkә arağın dozasının aşılmasına qarşı siyasi işlәr aparmalıdır. Yaxın illәrin statistikasında bu yüksәk yerlәrdәn bir qәdәr aşağı düşmәk lazımdır.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.